100 ilin qəzeti

ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 15 (24.450)

19 aprel 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

Azərbaycan-Gürcüstan:

Cənubi Qafqazda davamlı sülhün, əməkdaşlığın mühüm faktoru

Azərbaycan beynəlxalq hüquqa, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanan xarici siyasət kursu sayəsində qonşu dövlətlərlə münasibətlərin dinamik inkişafına nail olub, sülh, sabitlik, iqtisadi əməkdaşlıq təşəbbüslərini praktik nəticələrlə tamamlaya bilib. Müstəqil siyasi, iqtisadi yolun inamlı yolçusu olan respublikamız regionda etibarlı dost, strateji tərəfdaş imici qazanıb, bu amil əməkdaşlıqların dərinləşdirilməsi üçün yeni perspektivlərin açılmasında, nəhəng layihələrin icrasında özünü göstərib. Tarixin çətin sınaqlarından çıxan Azərbaycan-Gürcüstan əlaqələri də bu xüsusda öz sözünü deyib və Cənubi Qafqaz bölgəsində sülhün bərqərar edilməsi, təhlükəsiz yaşayışın təmini, iqtisadi mənzərənin formalaşmasında müstəsna yerə, rola malik olub. Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin Azərbaycana ilk səfəri, səfər çərçivəsində iki ölkə liderlərinin mətbuata bəyanatlarında da bu nüans diqqəti çəkdi, regionda vəziyyəti gərginləşdirməyə çalışan siyasi dairələrə mühüm mesajlar ünvanlandı.

Səhifə ➡ 2

Qarabağa həyat qayıtdı,

tarix, mədəniyyət, azan səsi qayıtdı

Səhifə ➡ 4

Azərbaycanı beynəlxalq logistik mərkəzə çevirən qlobal layihə

Azərbaycanın təşəbbüskarı olduğu, bilavasitə iştirakı ilə reallaşan elə bir layihə yoxdur ki, beynəlxalq siyasi, iqtisadi əlaqələr sisteminin, dialoqun möhkəmləndirilməsinə, regional əməkdaşlığın gücləndirilməsinə töhfə verməsin. Bu sırada Cənub Qaz Dəhlizi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), Bakı-Tbilisi-Qars dəmir yolunu nümunə göstərmək olar. Hazırda Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzinə çevrilən Azərbaycandan keçən dəhlizlər dünyanın ikinci ən böyük iqtisadiyyatına malik Çin də daxil olmaqla Mərkəzi Asiya, həmçinin Avropa İttifaqı ölkələrinin maraqlarına xidmət edir. Təqdirəlayiq haldır ki, respublikamız okeana çıxışı olmadan əsas nəqliyyat-tranzit mərkəzi funksiyasını daşımağa müvəffəq olub. Cari il yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə Prezident İlham Əliyev də ölkəmizin bu uğurunu mühüm nailiyyət kimi dəyərləndirib: ***"Onu da bildirməliyəm ki, adətən, nəqliyyat mərkəzləri statusuna malik olan ölkələr o ölkələrdir ki, onların açıq dənizlərə çıxışı var. Bizim isə dünya okeanlarına çıxışımız yoxdur. Amma buna baxmayaraq, gördüyümüz işlər nəticəsində biz Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevirmişik".***

Səhifə ➡ 8



Azərbaycan-Gürcüstan:

Cənubi Qafqazda davamlı sülhün, əməkdaşlığın mühüm faktoru

(əvvəli 1-ci səhifədə)

Xalqlar, ölkələrarası sülh, mehribanlıq, qardaşlıq prinsipləri üzərində inşa edilən Azərbaycan-Gürcüstan münasibətləri həm regional, həm də beynəlxalq miqyasda strateji əhəmiyyəti ilə seçilir. Bu əhəmiyyəti həm nəqliyyat, həm də enerji strategiyasının reallaşdırılması baxımından dəyərləndirmək olar. Azərbaycan-Gürcüstan enerji tərəfdaşlığı dedikdə, təbii ki, ilk olaraq yaddaşlarda canlanan Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, xüsusən də nəhəng layihə Cənub Qaz Dəhlizi olur. Hazırda Azərbaycan bu dəhlizin imkanlarından, gücündən lazımınca yararlanır, ümumilikdə, 11 ölkəyə Gürcüstan tranziti vasitəsilə təbii qaz ixrac edir və çoxalan təşəbbüsləri nəzərə alsaq, həmin rəqəmin artacağını əminliklə söyləyə bilərik. Ölkələrarası bu əməkdaşlıq, eyni zamanda, təbii olaraq, Gürcüstanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Statistikaya əsasən Gürcüstanın təbii qaz istehlakının 80 faizdən çoxu Azərbaycanın payına düşür. Bu göstəricinin özü respublikamızın tərəfdaşlıqda necə böyük rola, nüfuza sahib olduğunu göstərir. Təkbətək görüşün ardından mətbuata bəyanatında da Prezident İlham Əliyev ilk olaraq məhz ölkələrimiz arasındakı regional, beynəlxalq əhəmiyyətli enerji layihələrinə diqqət çəkdi, onların böyük coğrafiyada önəm qazandığını vurğuladı. Sitat: ***"Bizi birləşdirən bir çox sərmayə layihələri qeyd etdiyim kimi, böyük coğrafiya üçün önəmlidir. Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat, kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir və nəinki Cənubi Qafqazın, Avrasiya regionunun nəqliyyat və enerji xəritəsini yenidən tərtib edən layihələrdir. Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil. Hazırda Gürcüstan daxil olmaqla Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bu ixrac Gürcüstan vasitəsilə həyata keçirilir".***

Cənubi Qafqazın iki güclü ölkəsini bir-birinə yaxınlaşdıran amil həm də Şərqlə Qərb arasında ticarət dövriyyəsinin, yük daşımalarının təşkilinə verdikləri önəm və bu çərçivədə birgə reallaşdırılan layihələrdir. Nəqliyyat əlaqələrinin gücləndirilməsi baxımından Orta Dəhlizin imkanları, 2017-ci ildən bu dəhlizin əvəzolunmaz parçasına çevrilən Bakı-Tbilisi-Qars dəmir yolunun rolu mühümdür. Qitələri birləşdirən, uzunluğu, təxminən, 850 kilometr olan bu yol ilbəil Azərbaycanın və Gürcüstanın tranzit potensialını böyük dərəcədə genişləndirir. Vaxtilə bir sıra güclü ölkələrin çəkilişinə maneə olmağa çalışdığı BTQ respublikamızın böyük təşəbbüsü və israrlı mövqeyi ilə gerçəkliyə çevrildi. Azərbaycan nəinki Bakı-Tbilisi-Qars dəmir yolunu Türkiyə və Gürcüstanla birlikdə razılığa gələrək inşa etdi, hətta həmin dövrdə Gürcüstan dövlətinə bir milyard dollara yaxın çox aşağı faizlə kredit də verdi və faktiki olaraq bu vəsait hesabına Gürcüstan ərazisində infrastruktur təkmilləşdirildi, yol çəkilişləri aparıldı. İndi bu marşrut üzrə daşınmalarda aybaay artım müşahidə olunur. Azərbaycan artan daşınmaları nəzərə alaraq öz vəsaiti hesabına keçən il bu yolun genişləndirilməsini tamamladı və onun daşıma qabiliyyəti 5 milyon tona çatdırıldı. Nəticə etibarilə, bu gün bir sıra inkişaf etmiş ölkələr Azərbaycan ərazisindən keçən yüklərin Mərkəzi Asiyadan Avropaya və əks istiqamətə BTQ ilə daşınmasına böyük maraq göstərirlər. Hazırda bu dəmir yolu ilə yüklər təhlükəsiz, etibarlı şəkildə Aralıq dənizi istiqamətinə, Türkiyəyə, Avropaya daşınır. Hətta bu gün Azərbaycan-Gürcüstan-Türkiyə, oradan da Avropaya uzanan sözügedən dəmir yolu bağlantısını iqtisadi çəkisi və siyasi əhəmiyyətinə görə Afrika ilə Asiyanı birləşdirən Süveyş kanalı kimi titanik layihələrlə müqayisə edənlər də vardır.

Orta Dəhlizin rentabelliyini artıran BTQ Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsinin də artmasına mühüm töhfələr verməkdədir. Hazırda iki ölkə arasında ticarət dövriyyəsi 1,3 milyard dollları keçib. Ölkəmizin başçısı mətbuata bəyanatında Azərbaycanla Gürcüstan arasında tranzit imkanlarının genişləndirilməsi ilə bağlı məsələlərə də toxundu və hər iki ölkənin müasirləşən nəqliyyat infrastrukturunun, ümumilikdə, Orta Dəhlizə mühüm töhfələr verdiyini diqqətə çatdırdı: ***"Nəqliyyat-kommunikasiya sahəsində əldə olunmuş nailiyyətlər, yeni inşa edilmiş dəmir yolları, limanlar həm Azərbaycanda, həm də Gürcüstanda böyük sinergiya yaratmış və əslində, Orta Dəhlizin ayrılmaz hissəsinə çevrilmişdir. Əgər bu gün biz Cənubi Qafqazda Orta Dəhliz layihəsindən danışırıqsa, bu, Azərbaycandan və Gürcüstandan keçən dəhlizdir. İldən-ilə ölkələrimizin ərazisindən keçən yüklərin həcmi artır və bu yüklərin həcminin artırılması üçün əlavə addımlar atılır".***

Azərbaycan-Gürcüstan münasibətləri təkcə ikitərəfli iqtisadi əməkdaşlıqla məhdudlaşmır həm də beynəlxalq təşkilatlar vasitəsilə də uğurla inkişaf etdirilir. BMT, ATƏT, GUAM, QDİƏT və digər beynəlxalq platformalarda ölkələrimiz birbirinin milli maraqları ilə bağlı məsələlərə hər zaman həssaslıqla yanaşır və dəstək göstərirlər. Bu xüsusda onu da vurğulamaq yerinə düşər ki, Azərbaycanın haqq savaşına çıxdığı 44 günlük Vətən müharibəsində Gürcüstan ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmini üçün əlindən gələni əsirgəmədi. Öz ərazisindən Ermənistana hərbi təyinatlı yüklərin daşınmasına icazənin verilməsini müvəqqəti dayandırmaqla ikitərəfli əlaqələrdə və uğurlu siyasi, iqtisadi əməkdaşlıqda layiqli tərəfdaş olduğunu ortaya qoydu. Aprelin 16-da mətbuata bəyanatında Gürcüstan-Azərbaycan dostluğunu, strateji tərəfdaşlığını xüsusi və nümunəvi adlandıran Prezident Mixeil Kavelaşvili Gürcüstanın həmişə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin güclü tərəfdarı olduğunu vurğuladı. Son vaxtlar ölkələrimizin dəfələrlə ikili standartların və xarici qüvvələrin daxili işlərə müdaxiləsinin obyektinə çevrildiyini təəssüflə qeyd edən gürcü lider bildirdi ki, heç bir üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin yaxşı olduğunu bizdən yaxşı bilməsi mümkün deyil.

Bəli, Avropa hegemonlarının regionda xaos, hərc-mərclik yaratmaq cəhdlərinə qarşı etibarlı sədd baxımından bu gün güclənməkdə olan Azərbaycan-Gürcüstan münasibətləri mühüm faktordur. Əminliklə, demək olar ki, bu dostluq, mehriban qonşuluq Ermənistanın, onun havadarlarının düşmənçilik niyyətlərinin, məkrli planlarının üstündən xətt çəkməkdə böyük rol oynayacaq və Cənubi Qafqazda daimi sülh, əməkdaşlıq mühiti bərqərar ediləcək. Prezident İlham Əliyevin dediyi kimi: ***"Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsi də bizim birgə maraqlarımızda olan məsələdir və burada həm Gürcüstan, həm Azərbaycan öz töhfəsini verir. Əfsuslar olsun ki, uzun illər ərzində Cənubi Qafqaz münaqişə, müharibə arenasına çevrilmişdir. Ümid edirəm ki, bundan sonra Cənubi Qafqazın qara səhifələri bağlanacaq və tarixdə qalacaq".***

✍ **Nail ƏSGƏROV**

Prezident İlham ƏLİYEV:

"Gürcüstan və Azərbaycan birgə bir çox önəmli layihələri icra ediblər və bu layihələr həm ölkələrimiz üçün, xalqlarımız üçün, həm də daha geniş coğrafiya üçün böyük önəm daşıyır. Təbii olaraq, siyasi əlaqələr inkişaf edir. Yüksəksəviyyəli təmaslar müntəzəm xarakter daşıyır, siyasi dialoq fəaldır. Yəni iki dost, qardaş ölkə, sözün əsl mənasında, bir-birinə çox bağlıdır və beynəlxalq təşkilatlarda da daim bir-birini dəstəkləyir."

Azərbaycan diplomatiyasının qlobal nüfuzunun növbəti göstəricisi – IV Antalya Diplomatiya Forumu

Azərbaycan aparılan uğurlu xarici siyasət, məharətli diplomatiya sayəsində bu gün dünya ölkələri sırasında regional və beynəlxalq münasibətlər zəminindəki proseslərə nüfuzu, təsir gücü baxımından seçilir. Xüsusilə 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Qələbə ölkəmizin ərazi bütövlüyünü bərpa etməklə yanaşı, Azərbaycanın beynəlxalq miqyasda mövqeyini xeyli möhkəmləndirib, etibarını artırıb. Bu mənada, son bir neçə ildə Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə görüşlərinə, Şanxay Əməkdaşlıq Təşkilatının sammitlərinə, Ərəb Dövlətləri Liqasının 31-ci Sammitində, SPECA – Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi BMT Proqramının Zirvə Görüşünə, Davos Dünya İqtisadi Forumuna dəvət alması ölkəmizin qalib qismində yürütdüyü balanslaşdırılmış, çoxvektorlu xarici siyasətinə artan marağın, etimadın əyani təcəssümüdür. Aprelin 11-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Türkiyənin Antalya şəhərində keçirilən IV Antalya Diplomatiya Forumunda iştirakı da Azərbaycanın yalnız regionda deyil, qlobal miqyasda etibarlı tərəfdaş, təşəbbüskar dövlət kimi qəbul edildiyini bir daha göstərdi.

Dünyanın 155 ölkəsindən, ümumilikdə, 6 mindən artıq iştirakçının, o cümlədən yüzə yaxın dövlət və hökumət başçısının, deputatların, müxtəlif icmaların, dünyanın tanınmış ictimai-siyasi xadimlərinin, media nümayəndələrinin qatıldığı bu beynəlxalq tədbir "Parçalanmış dünyada diplomatiyanı bərpa etmək" mövzusuna həsr olundu. Bu çərçivədə keçirilən panel sessiyalarda dünyadakı böhranların həlli, dağıdıcı dəyişikliklərin önünə keçilməsi və konfliktlər, irqçiliklə mübarizə, qadın hüquqlarının qorunması kimi qlobal əhəmiyyətli məsələlər müzakirə edildi. Eyni zamanda Cənubi Qafqazdakı son vəziyyət, Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişi, Qərbi Azərbaycan və qərbi azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıdışı, iqlim dəyişikliyi ilə mübarizədə ölkəmizin rolu, o cümlədən Bakıda keçirilən COP29, Türk Dövlətləri Təşkilatının fəaliyyəti kimi ölkəmizin maraqlarına xidmət edən mövzular da masaya yatırıldı. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva forumun açılış mərasimində iştirak etdilər, dövlətimizin başçısı Türkiyə, Gürcüstan, Şimali Kipr, Suriya, Sudan rəhbərləri, eyni zamanda Avropa Şurasının Baş katibi ilə görüşlər keçirdi, tərəflər arasında iqtisadi-ticari, mədəni və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı, əlaqələrin perspektivlərinə dair fikir mübadilələri aparıldı.

Antalya forumu ilk olaraq Azərbaycan və Türkiyə arasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş ***"Bir millət, iki dövlət"*** prinsipinə əsaslanan münasibətlərin bu gün hər iki ölkənin rəhbərlərinin siyasi iradəsi və şəxsi dostluqları sayəsində ən yüksək zirvəyə çatdığını növbəti dəfə dünya ictimaiyyətinə bəyan etdi. Eyni zamanda sarsılmaz tellərlə bir-birinə bağlanan bu əlaqələrin təkcə iki qardaş ölkə arasında deyil, həm də regionun təhlükəsizliyi və inkişafı baxımından strateji əhəmiyyət daşıdığını göstərdi. Forumda diqqətçəkən məqam, təbii ki, Cənubi Qafqazdakı son vəziyyətin, Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsinin müzakirəsi idi ki, bu müstəvidə də siyasi gündəmi titrədən maraqlı anlar yaşandı. Panelə ayrılmış vaxtın 90 faizinin sərf olunduğu Ceyhun Bayramov-Mirzoyan debatı həmişəki kimi, birincinin üstünlüyü şəraitində keçdi. Ermənistan xarici işlər nazirinin sülh müqaviləsinə dərhal imza atmağa hazır olduqları iddiasına, "Hər şey hazırdır, yalnız zaman və məkanı müəyyənləşdirmək qalıb" sərsəm bəyanatına Ceyhun Bayramov dərhal güclü arqumentlərlə adekvat cavab verdi: "Siz sülhdən danışırsınız, amma konstitusiyanızda hələ də Azərbaycana qarşı ərazi iddiası var. Bu, fundamental ziddiyyətdir və əsas problemdir". Bəli, Prezident İlham Əliyevin müxtəlif siyasi platformalardan dəfələrlə bəyan etdiyi kimi, qarşı tərəf sülh istəyirsə, Azərbaycanın iki legitim şərtini qəbul etməlidir. Birincisi, de-fakto fəaliyyəti olmayan ATƏT-in Minsk qrupunun de-yure ləğvinə dair razılığa gəlməkdirsə, digər əsas məsələ isə, təbii ki, Ermənistan konstitusiyasından ölkəmizin ərazi bütövlüyünə təhdid yaradan müddəaların çıxarılmasıdır. Antalya forumundan iki gün əvvəl, aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusuna həsr edilən beynəlxalq forumda siyasi ekspertin sualına cavab olaraq Prezident İlham Əliyev bu məsələdə bir daha qəti mövqe ortaya qoydu.



Sitat: ***"Hesab edirəm ki, biz vaxt itirməməliyik, çünki yenə də sülh sazişinə gəldikdə, top Ermənistandadır. Mən bir çox hallarda Ermənistandan ərazi bütövlüyümüz və onların konstitusiyası ilə bağlı gözlədiklərimizi dəfələrlə açıq şəkildə bildirmişəm. Bunlar məlumdur. Beləliklə, bütün bu işlər tamamlanan və sülh sazişi imzalanan kimi Cənubi Qafqazı inteqrasiya olunmuş regiona çevirməyə cəhd etmək üçün heç bir maneə qalmayacaq. Hesab edirəm ki, bu vəziyyət Cənubi Qafqazın üç ölkəsinin xeyrinədir".***

Bəli, ölkə başçımızın da bəyan etdiyi kimi, qalib Azərbaycanın məğlub Ermənistan qarşısında şərti çox sadə, anlaşıqlı və beynəlxalq hüquqa əsaslanan şəkildədir. Bunun şərtdən daha çox böyük fürsət olduğunu dərk etmək üçün isə qarşı tərəfin dünya tarixində kapitulyasiyaya uğrayan ölkələrin hansı məhrumiyyətlərlə üzləşdiklərinə diqqət etmələri kifayətdir. Ancaq IV Antalya Diplomatiya Forumunda Ermənistan xarici işlər nazirinin absurd fikirləri onu deməyə əsas verir ki, haylar Azərbaycanın bu humanist davranışlarını qulaq ardına vurmaqda və bir neçə il bundan öncə baş verən hadisələrdən dərs çıxarmamaqda israrlıdırlar. Bu baxımdan, beynəlxalq forum həm də bir neçə vaxtdır, yalandan sülh istəyirmiş kimi büruzə verib, "sülh göyərçini" siyasi donuna bürünməklə təzahür edən növbəti erməni fitnəkarlığının ifşası kimi tarixə düşdü.

IV Antalya Diplomatiya Forumunda masaya yatırılan və Azərbaycanın növbəti diplomatik uğuru kimi xarakterizə olunan digər mühüm məsələ isə, sözsüz ki, Qərbi Azərbaycan və qərbi azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıdışının gündəmə gətirilməsi idi. Bu xüsusda onu vurğulamaq lazımdır ki, 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin respublikamızın xarici siyasət gündəliyinə saldığı "Qərbi Azərbaycana qayıdış" konsepsiyası ötən dövrdə dəfələrlə müzakirə predmetinə çevrilib, minlərlə soydaşımızın haqları dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Müddəalarına nəzər yetirəndə aydın olur ki, ölkəmizin irəli sürdüyü bütün təşəbbüs və şərtlər kimi, sözügedən konsepsiya da beynəlxalq hüquqa, ədalət prinsiplərinə əsaslanır. Qalib lider dəfələrlə vurğulayıb ki, biz torpağımıza tankla, topla deyil, dinc şəkildə qayıtmaq istəyirik. Ancaq təəssüf doğuran haldır ki, Azərbaycanın regionda sülhü, təhlükəsiz yaşayışı təşviq edən, tarixi ədalətin bərpasına söykənən bütün təşəbbüsləri, addımları kimi, "Qərbi Azərbaycana qayıdış" konsepsiyasına da Ermənistan rəhbərliyi müxtəlif çirkin, yaraşmaz siyasi donlar geyindirir, məsələni gündəmdən salmaq üçün siyasi manipulyasiyalara əl atırlar. Prezident İlham Əliyev isə çıxışlarında əsaslı faktlarla, arqumentlərlə danışaraq qarşı tərəfə və onun havadarlarına tarix dərs keçir, ölkəmizin Qərbi Azərbaycana qayıdış məsələsini diqqətdən kənarda qoymayacağını qəti şəkildə bəyan edir: ***"Yəni bizim istəyimiz bundan ibarətdir və bunu tələb etmək hər hansı bir ərazi iddiasında olmaq demək deyil. Sadəcə olaraq, buna insan hüquqları nöqteyi-nəzərindən yanaşmaq lazımdır və biz bu məsələni gündəlikdən çıxartmayacağıq. Halbuki bizə belə təkliflər var. Amma bunu hamı bilsin, həm Ermənistan, həm onun arxasında duranlar ki, bu məsələ gündəlikdən çıxmayacaq, o vaxta qədər ki, azərbaycanlılar təhlükəsizlik şəraitində Qərbi Azərbaycana və o cümlədən Qərbi Zəngəzura yerləşəcəklər".***

2022-ci ildən bəri sayca dördüncü dəfə keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində təşkil olunan yüksəksəviyyəli görüşləri, panel sessiyalardakı mövzuları analiz etdikdə aydın olur ki, forumun əsas məqsədi dünyada baş verən böhranların həllinə yeni yanaşmalar ortaya qoymaqla diplomatik töhfə verməkdir. Azərbaycanın ilk dəfə bu beynəlxalq tədbirdə yüksək səviyyədə təmsil olunması, respublikamızın maraqlarına uyğun masaların təşkili qalib ölkə olaraq artan qlobal nüfuzumuzdan xəbər verdi. Ümumilikdə isə beynəlxalq ictimaiyyəti narahat edən çox ciddi, vacib məqamlara aydınlıq gətirməklə, yeni ideyalar formalaşdırmaqla forum sağlam, etibarlı dünya üçün əhəmiyyət kəsb edən məsələlərin və çağırışların müzakirəsi baxımından önəmli beynəlxalq platformaya çevrildiyini göstərdi, birləşdirici gücünü nümayiş etdirdi.

"Şərq qapısı"

Qarabağa həyat qayıtdı, tarix, mədəniyyət, azan səsi qayıtdı

Tariximizə, mədəniyyətimizə qayıdış

Qarabağın işğaldan azad edilməsi təkcə yurd-yuvasından didərgin düşən insanların yox, tariximizin də özünə qayıdışı oldu. İllərlə düşmən tapdağı altında qalıb vəhşiliyə tuş gələn bu qədim Azərbaycan torpağında 1990-cı ilə kimi 706 tarixi və mədəniyyət abidəsi olub. Bu abidələrdən 11-i beynəlxalq, 240-ı dövlət, 455-i yerli əhəmiyyət daşıyıb. Lakin Qarabağın işğal edilməsi nəticəsində 22 muzey, 4,6 milyon kitabdan ibarət 927 kitabxana, 85 musiqi məktəbi, 4 teatr, 2 konsert zalı, 4 incəsənət qalereyası və 808 istirahət məkanı məhv edilib... Bəli, bütün bu rəqəmlər öz başına cəmlənməyib. Tarixi faktlar və sübutlardır. Biz bunları təkcə kitablardan oxumadıq, gözümüzlə də gördük! Düşmən torpağımızı işğal etməklə yetinməyib həm də milli-mədəni sərvətlərimizi məhv etməyə, yer üzündən silməyə çalışdı. Mənfurlar çox yaxşı dərk edirdilər ki, bölgədə olan tarixi abidələr Qarabağın Azərbaycan tarixinə bəxş etdiyi ən qiymətli sərvətdir. Elə buna görə də abidələri məhv etməklə onların təsvirlərini dəyişməklə işğal etdikləri ərazilərdən Azərbaycançılıq izlərini itirmək istəyirdilər. Ermənilər ötən 200 il idi ki, təkcə insanlarımıza yox, mədəni tariximizə qarşı da soyqırımı törədirdi. Onlar elə düşünürdülər ki, Şuşa qalasını dağıtmaqla Vaqifin məzarını xarabaya çevirməklə məscidlərimizdə murdar heyvanlar saxlamaqla bu xalqın o torpaqların əzəli sahibi olduğu izini itirə biləcək və işğal etdikləri ərazilərin onlara məxsus olduğunu sübut edəcəklər.

Elə Vətəni olmayan, torpağı öz qanı ilə yoğura bilməyən bir tayfaya bu cür cılız olmaq yaraşırdı. Onların ağlına gəlmirdi ki, bu torpağın əbədi və əzəli sahibi bir gün mütləq qayıdacaq. Çünki manqurtlaşmış erməni faşistinin düşünmək kimi qabiliyyəti yox idi. İllərlə divan tutdu Qarabağa qan tutmuş gözləri doymadı amma. Ta ki həmin günə kimi. Bir payız səhəri onlar tüstüsünü ərşə qaldırdıqları abidələrin toz-torpağını üst-başlarından silməyə macal tapmamış Vətən oğulları düşməni həmin toz dumana qərq edib öz nəfsində boğdu. Diz çökdürdü. Tarixi zəfərdən – Qarabağ işğaldan azad ediləndən sonra gördüklərimizə inandıq, çünki biz yaxşı bilirdik, qarşımızdakı düşmənin necə vandal olduğunu. Onlar gəldikləri kimi də getdilər: yandırıb, dağıdıb, talan edib. Bizə lazım olan quruca torpağımız idi. Biz yumruq kimi birləşib yurdumuzu azad etdiyimiz kimi onu abadlaşdırmağı da bilirdik.

İşğaldan azad olunmuş ərazilərdə 400-ə yaxın abidə dağıdılmışdı

Təkcə Ağdam şəhərində olan dünya əhəmiyyətli, eradan əvvəl II minilliyin sonlarına və Orta Tunc dövrünə aid tarixi-memarlıq abidəsi – Üzərliktəpə ermənilər tərəfindən yandırılaraq məhv edilib. Kəngərli kəndindəki XIV əsrə aid daş abidələr, Xan qızı Natəvanın və oğlunun şərəfinə tikilmiş türbə, Şahbulaq qalası, Paprəvəd kəndində yerləşən Xanoğlu türbəsi, məscid və digər tarixi-memarlıq abidələri də işğal dövründə ermənilər tərəfindən məhv edilib. Memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən 1868-1870-ci illərdə tikilmiş Ağdam Cümə məscidi də 1993-cü ildə ermənilərin rayonu işğalı zamanı darmadağın olub. Şuşa şəhərində vəziyyət daha da ürək yandırırdı. Şuşa şəhərinin tarixi muzeyi, Üzeyir Hacıbəyov, Bülbül, Mir Möhsün Nəvvabın Xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı, Rəsm Qalereyası və digər tarixi binalar dağıdılmışdı.

Tarixin də, mədəniyyətin də üzü gülür

İşğaldan azad edilən ərazilərimizdə artıq beş ildir, infrastrukturun yenidən qurulması, yaşayış sahələrinin yaradılması ilə yanaşı, düşmənin yerləyeksan etdiyi mədəni, tarixi irsimizin bərpası da diqqətdə saxlanılır, bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən önəmli layihələr gerçəkləşdirilir. Fondun əsas prioritetlərindən biri də məhz tarixi, dini və mədəni abidələrin qorunmasıdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də rəsmi "Instagram" səhifəsindəki paylaşımında yazırdı: ***"Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır".***

Həmin tarixdən bərpa layihələrinə yerli mütəxəssislərlə yanaşı, Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən olan mütəxəssislər də Qarabağın dirçəldilməsinə öz töhfələrini verməkdədir. Təkcə Şuşa şəhərində 150-dən çox tarixi abidə mövcuddur. Bu abidələrin hər birinin bərpası xüsusi önəm daşıyır. Prezident İlham Əliyevin Şuşanın mədəniyyət paytaxtı elan edilməsi barədə Sərəncam imzalaması şəhərin xüsusi əhəmiyyətə malik olduğunu bir daha göstərir. Buna görə də Şuşanın bərpası və yenidən qurulması xüsusi həssaslıqla aparılır. Şuşa şəhərində Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa, Saatlı məscidlərinin, Mehmandarovların malikanə kompleksinin bərpası Heydər Əliyev Fondunun işğaldan azad olunmuş ərazilərdə bərpa etdiyi ilk tarixi abidələr olmaqla yanaşı, fondun tarixi kimliyimizə göstərdiyi diqqət və qayğısının ən bariz nümunəsidir.

Azad torpaqlardan yüksələn azan səsi

Ermənistanın 30 illik işğalı dövründə Qarabağ bölgəmizdə olan bütün dini abidələrimizə qarşı vəhşiliklər törədilib. Bu abidələr ya dağıdılaraq bərbad vəziyyətə salınıb, ya da tamamilə məhv edilib. Qarabağ ərazisində olan 67 məsciddən 63-nü ermənilər yerləyeksan ediblər. Qalan 4 məsciddən 3-nə isə ciddi ziyan vurulub. Yeganə 1 məscid, Qarabağın incisi Şuşa şəhərində yerləşən Yuxarı Gövhər Ağa məscidində isə dəyişikliklər edərək bu abidənin Azərbaycana aid olmadığını sübut etməyə çalışıblar. Torpaqlarımız işğaldan azad edildikdən sonra bölgənin yenidən tikilib-qurulması istiqamətində vacib sahələrdən biri də dini abidələrimizin tikinti-bərpa işləridir. Artıq beş ilə yaxındır ki, Qarabağ ərazisində böyük tikinti-quruculuq işləri aparılır. Kəndlər, şəhərlər yenidən salınır. Bütün lazımi infrastruktur qurulur. İnsanlar öz yurd-yuvalarına qayıdırlar.

İşğaldan azad olunmuş ərazilərdə dini məbədlərimizin bərpasına dövlət səviyyəsində ciddi önəm verilir. Heydər Əliyev Fondu dini və tarixi abidələrin tikinti-təmir işlərində xüsusi rol oynayır. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilk günlərdən azad Qarabağda məscidlərimizi ziyarət etmişlər. Dövlət başçısı düşmənin xarabaya çevirdiyi Ağdam məscidinə ayaqyalın girərək düşmənə və onun havadarlarına layiqli cavabı verdi. Ermənilərin dağıtdığı ziyarətgahlarımızın, qəbirüstü abidələrimizin bərpası üçün tapşırıqlar verdi. 44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra Qarabağda azərbaycanlılar öz doğmalarının dağılmış qəbirlərini ziyarət edə bildilər. İyirmi yeddi ildən sonra Ağdam Cümə məscidində yenidən azan səsləndi. Ölkə başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva məscidi ziyarət edərək dövlət başçısının Məkkədən gətirdiyi müqəddəs "Qurani-Kərim"i məscidə hədiyyə ediblər.

İşğal dövründə Qubadlı rayonunun Məmər kəndində XVIII əsrdə inşa edilmiş məscid, həmçinin rayonun Dondarlı, Dəmirçilər kəndlərində olan məscidlərimiz də məhv edilib. Dağılmış Zəngilan məscidində isə erməni vandalları donuz saxlayıblar. Dinimizdə murdar sayılan bu heyvanın məscidlərimizdə saxlanılması təkcə bizə yox, bütün islam aləminə təhqir olsa da, bəzi müsəlman ölkələri ermənilərə bu əməllərinə görə qınamaq əvəzinə onlara dayaq olurdular. Bütün bunlara baxmayaraq, Uca Tanrı bizim haqqımızı haqq elan etdi və biz bütün dünya istəməsə də, torpağımızı geri aldıq. Həmin məscidlər də yenidən quruldu Heydər Əliyev Fondunun dəstəyi ilə.

İşğalçının heç bir dinə hörməti yoxdur

Qarabağ azad olunandan sonra biz gördük və şahid olduq ki, düşmənin bu dünyadakı heç bir dinə hörməti yoxdur. Əgər belə olmasa idi, erməni vandalları Qarabağda yerləşən azlıqlara aid olan xristian dini ziyarətgahlarına qarşı da vəhşilik etməzdilər. Onlar işğal dövründə 1894-cü ildə Xocavənd rayonunda inşa edilmiş rus Pravoslav kilsəsini belə dağıtmışlar. Rayonun Tuğ kəndində yerləşən İohann kilsəsində də ermənilər saxtakarlıqla bəzi dəyişikliklərə cəhd ediblər. Eyni zamanda Laçın rayonunda yerləşən Alban (Qafqaz) Apostol Müstəqil kilsəsində də alçaq niyyətlərini həyata keçiriblər. Tolerant Azərbaycan dövləti bütün dinlərə hörmətlə yanaşdığı kimi, onun dini abidələrinə də diqqət göstərir. İndi işğaldan azad olunmuş bütün ərazilərimizdə dini abidələrimiz tikilib yenidən qurulur. Tuğ kəndindəki qədim Alban məbədi, Laçın rayonundakı Ağoğlan monastrı da, Azərbaycan hökuməti tərəfindən bərpa edilərək öz sahiblərinin ixtiyarına verilmişdir. Ulu Öndərin adını daşıyan fondun işğaldan azad olunan ərazilərdəki fəaliyyəti nəticəsində işğal dövründə dağıdılmış tarixi abidələrimizin milli kimliyi son beş ildə özünə qaytarılır. Vaxtı ilə düşmən vandallığı ilə xarabaya dönən məscidlərimizdən yüksələn azan səsi düşmənin qulağını kar edir. Yenidən həyata dönən Qarabağda ucalan tarixi abidələr bu yerlərin əbədi sahibi olduğumuzu bir daha sübut edir.

Şanlı Vətən savaşından sonrakı dövrdə Müzəffər Sərkərdə İlham Əliyev deyib: ***"Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin".***

Bu gün beş il bundan öncə verilən sözlərin yerinə yetdiyinin şahidi olmaq, Ağdam məscidində daşların öz yerinə oturduğunu görmək, Zəngilandan gələn azan səsini eşitmək, Şuşada Göhvər Ağa məscidində bayram namazı qılmaq, Vaqifin məqbərəsini, Bülbülün ev-muzeyini, Mehmandarovların malikanəsini ziyarət edə bilmək sevincini yaşayanlardan və bunları qələmə alanlardan biri olmaq bizim ən böyük qürurumuz və şərəfimizdir.

"Şərq qapısı"

Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib

Aprelin 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının üçüncü iclası keçirilib.

Bəxtiyar Məmmədov iclasın gündəliyində duran məsələlərin "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (birinci oxunuş) və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (birinci oxunuş) müzakirəsi olduğunu bildirib.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclis sədrinin birinci müavini bildirib ki, "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılmasının təmin edilməsi məqsədilə qanun layihəsi hazırlanıb və deputatlara paylanılıb.

Qanun layihəsi barədə Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Müzakirə olunan məsələ ilə bağlı qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəlikdə duran ikinci məsələnin müzakirəsi zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılmasının təmin edilməsi, o cümlədən publik hüquqi şəxslərin əmlakı və idarəetməsi ilə bağlı müddəaların təkmilləşdirilməsi məqsədilə hazırlanan qanun layihəsi deputatlara təqdim olunub.

Qanun layihəsi barədə Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Bununla da Ali Məclisin iclası başa çatıb.

Qeyd edək ki, Ali Məclisdə təcrübədə olan Naxçıvan Dövlət Universitetinin tələbələri də plenar iclasda iştirak edib, iclasın gedişini izləyərək qanunvericilik prosesinin praktiki mərhələləri ilə tanış olublar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində müşavirə keçirilib

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilovun sədrliyi ilə ortamüddətli büdcə çərçivəsi, büdcə siyasətinin əsas istiqamət və məqsədləri, habelə ilkin makroiqtisadi proqnozlar və makro-fiskal çərçivə, 2026-cı il və sonrakı üç il üçün muxtar respublika büdcəsinin proqnoz göstəriciləri, büdcənin gəlir və xərcləri, büdcə dayanıqlığı ilə bağlı müşavirə keçirilib.

Müşavirə gündəliyinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkə üzrə müəyyən edilən prioritet xərc istiqamətləri çərçivəsində müvafiq hədəf göstəricilərinə dair Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov, Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Abbas İsmayılov və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Hüseyn Bağırovun çıxışı dinlənilmiş, göstəricilərin təhlili və müzakirəsi aparılmışdır.

Müşavirənin yekununda Baş nazir Ceyhun Cəlilov ötən 2 il ərzində fiskal tənzimləmə çərçivəsində muxtar respublikada aparılan islahatlar barədə ümumi fikirlərini bildirmiş, muxtar respublikada 2022-ci ildə yığılmış 133 milyon manat vergi məbləğinin 2024-cü ildə 227 milyon manata çatdırılmasını, dövlət əmlakının idarəolunmasından büdcəyə daxilolmaların dinamik artımını, habelə cari nəzarət alətlərinin tətbiqi ilə maliyyə intizamının gücləndirilməsini aidiyyəti qurumların uğurlu işinin nəticəsi olduğunu bildirmişdir. Müşavirə iştirakçılarının rəyləri nəzərə alınmaqla aidiyyəti qurumlara növbəti ilin büdcə zərfinin hazırlığı ilə bağlı müvafiq təlimatlar verilmişdir.

Ali Məclisin komitə iclasları olub

Aprelin 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev gündəlikdə duran məsələlərin – "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirə olunacağını diqqətə çatdırıb.

Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov qanun layihələri haqqında məlumat verib.

Sonda Hüquq siyasəti komitəsinin rəyi oxunub, qanun layihələri Ali Məclisin müzakirəsinə təqdim edilib.

***

Aprelin 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının, həmçinin "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələrinə təklif olunan dəyişikliklərin müzakirəsinin daxil edildiyini deyib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Hüquq şöbəsinin müdir müavini Gülçin Dünyamalıyev "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabat" layihəsi barədə məlumat verib, səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətirib.

Müzakirə olunan məsələ ilə əlaqədar Hüquq siyasəti komitəsinin rəyi oxunub, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunub.

Gündəlikdə duran digər məsələlərin müzakirəsi zamanı Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 aprel 2025-ci il tarixli iclasında birinci oxunuşda qəbul edilən "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələrinə təklif olunan dəyişikliklərlə bağlı məlumat verib.

Qanun layihələri ətrafında müzakirələr aparıldıqdan sonra protokol qaydasında qərar qəbul edilib, qanun layihələri yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasının (ikinci oxunuş) müzakirəsinə təqdim edilib.

***

Aprelin 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

Komitə sədri Emin Şıxəliyev gündəlikdə duran məsələni – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatını diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Qanunvericilik və proqramların icrasına nəzarət şöbəsinin müdiri Zakir Məmmədov və İqtisadiyyat şöbəsinin əməkdaşı Elnur Əliyev hesabat layihəsi haqqında məlumat veriblər.

Gündəlikdə duran məsələ ətrafında müzakirələr aparıldıqdan sonra İqtisadi siyasət komitəsinin rəyi oxunub,

"Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunub.

***

Aprelin 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət və Sosial siyasət komitələrinin iclasları keçirilib.

Hər iki komitə iclasının gündəliyinə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının müzakirəsi daxil edilib.

Humanitar siyasət komitəsinin iclasında Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri Tarverdi Məmmədov, Sosial siyasət komitəsinin iclasında isə Sosial məsələlər şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Hüseyn Ələsgərov hesabat layihəsi haqqında məlumat veriblər.

Sonra gündəlikdə duran məsələ ətrafında müzakirələr aparılıb, iclas iştirakçıları hesabat layihəsi barədə öz fikirlərini, irad, qeyd, təklif və suallarını səsləndiriblər.

Sonda komitələrin rəyləri oxunub, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti

Vüqar Rəhimzadə: "Zəngəzur dəhlizi regionda yeni iqtisadi, nəqliyyat və kommunikasiya əlaqələrinin qurulmasına mühüm töhfə verəcək"

"44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz Azərbaycanın beynəlxalq hüquq çərçivəsində haqlı mövqeyini, ədaləti təsdiqləməklə yanaşı, regionda yeni nəqliyyat-kommunikasiya imkanlarının yaranmasına zəmin yaratdı. Azərbaycanın hərbi-siyasi qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın müddəalarına əsasən Zəngəzur dəhlizinin açılması təmin olunmalıdır. Lakin həmin vaxtdan ötən dövr ərzində Ermənistanın hər vəchlə buna maneə olmağa çalışdığı göz önündədir. Bu dəhlizin açılması yalnız Azərbaycanın deyil, eyni zamanda regionun digər dövlətlərinin də maraqlarına cavab verir. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Zəngəzur dəhlizinin bərpası ilə Avropa və Asiya qitələri arasında ticarət dövriyyəsinin həcmi daha böyük rəqəmlərlə ifadə ediləcək. Bu dəhliz yüklərin qısa müddətdə mənzilbaşına çatdırılması, nəqliyyat xərclərinin azalması baxımından ölkələrə, şirkətlərə əlavə qazanc gətirəcək.

Zəngəzur dəhlizi Azərbaycanı region dövlətləri ilə yanaşı, Mərkəzi Asiya ilə Türkiyə və Avropanı birləşdirəcək. Çindən, Mərkəzi Asiya respublikalarından, eləcə də Cənub-Şərqi Asiyanın başqa ölkələrindən Avropaya daşınan yüklər Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Zəngəzur dəhlizi vasitəsilə Türkiyə və Şərqi Avropa ölkələrinə çatdırılacaq.

Təsadüfi deyil ki, son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatların nəticəsi olaraq Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti daha da artıb. Bu ilin yanvarında keçirilən nəqliyyat məsələlərinə həsr olunan müşavirədə də dövlət başçısı İlham Əliyev Azərbaycanın nəqliyyat sektorunda qazandığı uğurlara, perspektivlərə diqqəti yönəldərək bildirdi ki, Azərbaycanın coğrafi vəziyyəti elədir ki, bizim ərazimizdən beynəlxalq nəqliyyat dəhlizləri keçir və ona görə keçir ki, biz bu coğrafi vəziyyətdən səmərəli şəkildə istifadə edə bilmişik. Sadəcə olaraq, coğrafi yerləşmə hələ o demək deyil ki, hər hansı bir ölkə nəqliyyat qovşağına çevrilə bilər. Biz isə ardıcıl olaraq beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan ərazisindən keçməsinə maraq göstərmişik, səylər göstərmişik və praktiki işlər görmüşük. Bir sözlə, bu gün Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən birinə çevrilib".

Bu fikirləri Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Şərq qapısı"na açıqlamasında bildirib.

Millət vəkili qeyd edib ki, yeni layihələr arasında Zəngəzur dəhlizi xüsusi qeyd edilir. Bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadə, termindir. Dövlətimiz bu dəhlizin açılması üçün praktiki addımlar atır. Ermənistan tərəfi dörd ildən çoxdur ki, 10 noyabr üçtərəfli bəyanatında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Həmin bəyanatda açıq-aydın göstərilir ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır. Ermənistan isə buna əməl etmir, müxtəlif bəhanələr gətirərək, qeyri-real və cəfəng layihələri ortaya ataraq, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir. Eyni zamanda Ermənistan və onun havadarları Azərbaycana qarşı müxtəlif dairələrdə çirkin kampaniyaların aparılmasına rəvac verirlər. Bunun nəticəsində faktiki olaraq bu günə qədər Azərbaycanın ayrılmaz hissəsi – Naxçıvan Muxtar Respublikası ilə bizim ən qısa və ən rahat bağlantımız yoxdur.

Vüqar Rəhimzadə vurğulayıb ki, nəqliyyat infrastrukturunun beynəlxalq əhəmiyyətini nəzərə alaraq onun keçəcəyi ərazidə inşaat işlərini sürətləndirən Azərbaycanın dəmir və avtomobil yollarında tikinti işlərinin xeyli hissəsi icra olunub. Zəngəzur dəhlizinin bərpasının əsas məqsədlərindən biri də respublikamızın digər rayonları ilə muxtar respublika arasında dəmir və avtomobil yollarının bərpası nəticəsində Türkiyə də daxil olmaqla Türk dünyasının coğrafi bağlantısı, tarixi ədalət bərpa olunacaq. 10 noyabr 2020-ci il tarixili üçtərəfli Bəyanatda, qardaş Türkiyə ilə Azərbaycanın qardaşlığının, dostluğunun, müttəfiqliyinin rəsmiləşdirildiyi tarixi Şuşa Bəyannaməsində bölgədə əməkdaşlığın, sülhün təminatının başlıca amili kimi analoqu olmayan platforma adlandırılan Zəngəzur dəhlizinin açılması məsələsi öz əksini tapıb.

Milli Məclisin deputatı vurğulayıb ki, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Nəqliyyat sektorunun bütün sahələrində xidmət infrastrukturları modernləşdirilir, yol təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr həyata keçirilir, çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunur. Tarixi İpək Yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının dəstəkçisi və iştirakçısı olan Azərbaycan həm də digər dəhlizlərlə müqayisədə Zəngəzur dəhlizi vasitəsilə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında mənzilbaşına çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına imkan yaradır. İşğaldan azad edilən Qarabağ regionunun coğrafi mövqeyi, ərazidən Avropaya və Asiyaya çıxış imkanlarının artması isə Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya və dəhliz layihələrində bundan sonra daha fəal iştirakını gücləndirəcək.

Vüqar Rəhimzadə onu da qeyd edib ki, Ermənistan Zəngəzur dəhlizinin açılmasına maneə olmaq istəsə də, dünyada söz sahibi olan ölkələr buna imkan verməyəcəklər. Çin, Rusiya və Türkiyə kimi beynəlxalq arenada söz sahibi olan ölkələr bu dəhlizin açılmasında israrlıdırlar. Türk dünyasına açılan qapı kimi dəyərləndirilən Zəngəzur dəhlizinin açılması tarixi ədalətin bərpası olacaq. Qərbi Zəngəzurun 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Azərbaycandan qoparılaraq Ermənistana verilməsi ilə xalqımıza qarşı cinayət törədilib. Azərbaycan xalqı Zəngəzuru unutmamış və unutmur. Türkiyə bu məsələdə Azərbaycanın haqlı mövqeyini qətiyyətlə dəstəkləyir.

Millət vəkili bildirib ki, bu dəhliz nəqliyyat əlaqələrini gücləndirəcək, yeni iqtisadi imkanlar yaradacaq və regionun inkişafına mühüm töhfə verəcək. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi hazırda 93 faiz səviyyəsində tamamlanıb. Bu dəhliz strateji əhəmiyyətə malik və regionda yeni iqtisadi, nəqliyyat və kommunikasiya əlaqələrinin qurulmasına töhfə verən bir layihədir. Zəngəzur dəhlizi yalnız infrastruktur layihəsi olmaqla kifayətlənmir, həm də regional inteqrasiyanın mühüm bir hissəsidir. Bu yol yalnız nəqliyyat sistemini gücləndirmək deyil, həm də regionda iqtisadiyyatın inkişafını sürətləndirmək və strateji əlaqələri gücləndirmək üçün mühüm bir vasitə olacaq. Dövlət başçısı İlham Əliyev bu çağırışı edir ki, Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır.

Ali Baş Komandanın bir əmri və qətiyyətli siyasi iradəsi yetər. Biz Zəngəzura dinc və ləyaqətli şəkildə qayıdacağıq. Amal və məramımız budur. Bu ləyaqət və dincliyin arxasında həmişə bir "dəmir yumruğ"un keşik çəkdiyini də heç kim unutmamalıdır!

Baş redaktordan

Sara ƏZİMOVA

Naxçıvan bütöv Azərbaycanın nəfəs yolu olacaq

Dağların səsi ilə danışan bir torpaq var – adı Naxçıvandır. O susanda da danışır, baxanda da deyir, gözləyəndə də çağırır. Bu torpaq həmişə ayıq-sayıq olub. İndi isə daha dərin bir səssizlik içindədir, amma bu səssizlik qorxu deyil, bu səssizlik hazırlıqdır.

Sükutun da öz dili var. Son günlər Naxçıvanda bu sükutun altında səngər səsi eşidilir. Torpaq nəfəs alır, sanki əsrlərin yükünü boşaltmağa, tarixini bir daha yazmağa hazırlaşır. Əlincə qalasının qaya kimi sərt baxışları yenə dağlara zillənib. Arpaçayın suyunda, Sədərəyin küləyində bir intizar var – bu intizar Vətənindir.

Səngərlər torpağın dərinliyində yazılır. Sözsüz, səssiz, lakin ucalıqla. Bu səngərlər yalnız müdafiə üçün deyil, bu səngərlər bir tarix yazmaq üçündür. Səngər qazmaq yeri yara bilmək deyil, zamanın sinəsini yarmaqdır. Hər bir kürək vuruşunda Naxçıvanın dağları sanki nəfəs alır. Çünki bu dəfə tarix, bəlkə də, buradan başlayacaq...

Zəngəzur deyirlər... Oradan sükut gəlir. O sükutun içində qırılmış yolların, yarımçıq qalmış cığırların, bir də bölünmüş Vətənin fəryadı var. Və bu fəryadı ən yaxşı Naxçıvan eşidir. Ən yaxşı Naxçıvan anlayır – susur, amma gözləyir.

Tarix çağırır. Bu dəfə məsələ, sadəcə, coğrafiya deyil – bu dəfə məsələ şərəfdir, milli iradədir. Zəngəzur dəhlizi, sadəcə, bir yol deyil. Bu, parçalanmış torpağın damarını birləşdirməkdir. Bu göy üzündəki ay-ulduzun bir daha bütövləşməsidir. Bu yolda səngərlər də qazılar, ürəklər də yumruq kimi birləşər.

Bir əsgər kimi dik dayanır Naxçıvan. Səngərləri sinəsində, Vətəni ürəyində daşıyır. Sərhəd daşı tək səssiz, bayraq kimi qürurludur. Qəlbi döyünür: "Mən hazıram", – deyir. "Bircə əmr yetər..."

Vətənpərvərlik yalnız müharibədə silah tutmaq deyil. Vətənpərvərlik sükutda səbir etməkdir. Lazım gələndə ayağa qalxmaq, Vətən torpağına çevrilən hər daş üçün döyüşə hazır olmaqdır. Vətənpərvərlik həm də öz işini yaxşı görməkdir.

Və hər gördüyün işlə Vətənə – Zəngəzura bir az da yaxınlaşmaqdır.

Qarabağda zəfəri yazan ruh indi Zəngəzur yolunun qapısındadır. Naxçıvan susmur – gözləyir. Vətən oğulları yalnız səngərdə deyil, ürəyində Vətəni daşıyan hər kəsin içindədir. Onlar səssiz səngərlər qazırlar, qürurlu gözlərlə dağlara baxırlar və deyirlər:

"Biz gəlirik..."

Çünki bu torpaq bizimdir. Bu yol bizimdir. Bu tarix bizimdir.

Və bu yolun sonunda bir Lider dayanır – sözündə, əməlində, qərarında dəmir kimi möhkəm olan Ali Baş Komandan. Qarabağı azad edən iradə bu yolun da açarını daşıyır. Biz onu tanıyırıq. Biz ona güvənirik.

O hər zaman dedi: ***"Biz istədiyimizə nail olacağıq".*** Və biz inanırıq – necə ki Şuşaya bayraq sancıldısa, bu yol da bir gün bütöv Azərbaycanın nəfəs yolu olacaq. Səngərlər təkcə torpaqda yox, ürəklərdə də qazılır. Bu iradə, bu ruh, bu birlik – heç kimə və heç nəyə uduzmaz.

Ali Baş Komandanın bir əmri yetər, bir xalqın ayağa qalxması kifayətdir.

Biz hazırıq. Biz inanırıq. Biz güvənirik.

Bu yol bizim olacaq.

Bu Qələbə yenə bizim olacaq.

Və Naxçıvan artıq gözləmir. Naxçıvan çağırır.

Ali Baş Komandanın bir əmri və qətiyyətli siyasi iradəsi yetər.

Biz Zəngəzura dinc və ləyaqətli şəkildə qayıdacağıq. Amal və məramımız budur. Bu ləyaqət və dincliyin arxasında həmişə bir "dəmir yumruğ"un keşik çəkdiyini də heç kim unutmamalıdır!

Yeni tibbi avadanlıqların təqdimatı olub

Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyinin (TMİB) tabeliyində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublika Xəstəxanası və Şahbuz Rayon Mərkəzi Xəstəxanasına yeni tibbi avadanlıqların təqdimatı keçirilib. Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva çıxış edərək bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə səhiyyə sahəsinə xüsusi diqqət göstərilir. Muxtar respublikada da bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Təqdim olunan tibbi avadanlıqlar təkcə texniki yenilənmə deyil, həm də əhalinin sağlamlığına verilən dəyərin göstəricisidir. Regionlarda yüksəksəviyyəli tibbi xidmətin təşkili dövlətimizin sosial siyasətinin əsas prioritetlərindəndir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Humanitar məsələlər şöbəsinin müdir müavini Hüseyn Ələsgərov qeyd edib ki, səhiyyə infrastrukturunun gücləndirilməsi, xüsusilə rayon və bölgə xəstəxanalarının imkanlarının genişləndirilməsi insanların yaşadıqları ərazidə keyfiyyətli tibbi xidmətə çıxışını təmin edir. Bu təşəbbüs bir daha sübut edir ki, vətəndaşların sağlamlığı dövlət siyasətində prioritet yer tutur və bu istiqamətdə layihələr davamlı olaraq reallaşdırılacaq.

Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyinin icraçı direktoru Vüsal Məmmədov qeyd edib ki, təqdim olunan avadanlıqlar ən müasir texnologiyalara əsaslanır və tibb müəssisələrinin fəaliyyətində mühüm rol oynayacaq. Bu yeniliklər tibb işçilərinin fəaliyyətini asanlaşdıracaq, pasiyentlərin isə xidmət keyfiyyətindən məmnunluğunu artıracaq.

Sonra alınan tibbi avadanlıqlara baxış olub. Bildirilib ki, Naxçıvan Muxtar Respublika Xəstəxanası üçün 2 ədəd narkoz aparatı penlon prima 320A, 3 ədəd bipolyar koaqulyator ensurg SSE tur plus, 3 ədəd contec TS13 modular sistemli xəstəbaşı monitor, Şahbuz Rayon Mərkəzi Xəstəxanası üçün isə İtaliya istehsalı olan esaote mylab X6 model ultrasəs müayinə aparatı üç ədəd ötürücü ilə birlikdə alınıb gətirilib.

Qeyd olunub ki, hazırda digər tibbi cihazların da çatdırılması və quraşdırılması mərhələli şəkildə davam etdirilir. Bunlara 1 ədəd rentgen cihazı, 1 ədəd EKQ cihazı, 1 ədəd EMQ cihazı, 1 ədəd USM cihazı daxildir. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası üçün isə rəqəmsal portativ rentgen cihazının alınması və digər avadanlıqların təmiri üzrə müsabiqə yekunlaşıb, müvafiq müqavilə bağlanaraq sifarişlər təqdim olunub. Bu avadanlıqlar müasir tibbi xidmətin təşkili və xəstələrə operativ, effektiv yanaşmanın tətbiqi baxımından mühüm rol oynayacaq.

Hazırda Şərur Regional Tibb Mərkəzi üçün kompüter tomoqrafiya cihazı (KT), Hemodializ Mərkəzi üçün 20 ədəd dializ cihazı və 22 ədəd dializ kreslosu, digər tibb müəssisələri üçün isə sidik analizatoru, USM (doppler dəstəkli), koaqulyator, defibrilyator, EKQ və xəstəbaşı monitorları kimi avadanlıqların tender prosesləri davam etdirilir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi üçün küvəz, əməliyyat masası, portativ monitor və ultrasəs cihazlarının satınalma prosesi də həyata keçirilir.

İqtisadçı ekspert Vüqar Bayramlı: "Qars-İğdır-Naxçıvan dəmir yolu ölkəmizin geosiyasi mövqeyini daha da möhkəmləndirəcək"

Milli Məclisin deputatı, iqtisadçı ekspert Vüqar Bayramlı "Şərq qapısı" qəzeti üçün Qars-İğdır-Naxçıvan dəmir yolunun perspektivləri barədə fikirlərini bölüşüb:

– Vüqar müəllim, ilk sualımız, şübhəsiz, Qars-İğdır-Naxçıvan dəmir yolunun Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı üçün əhəmiyyəti barədədir. Bu dəmir yolu gələcəkdə muxtar respublikanın nəqliyyat-kommunikasiya imkanlarına və işgüzar fəallığa necə təsir edəcək?

– Naxçıvan Muxtar Respublikası uzun müddətdir ki, blokada şəraitində yaşayır. Nəzərə alsaq ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa quru nəqliyyat əlaqəsinin olmaması Naxçıvan Muxtar Respublikasının, xüsusən də xarici bazarlara çıxış imkanlarını məhdudlaşdırır. Təbii ki, bu kontekstdən Qars-İğdır-Naxçıvan dəmir yolunun açılması muxtar respublikanın iqtisadiyyatı üçün əhəmiyyətli bir layihədir, çünki bu bir tərəfdən Naxçıvan Muxtar Respublikasının nəqliyyat-kommunikasiya imkanlarının genişləndirilməsinə və eyni zamanda xüsusən də idxal-ixrac əməliyyatlarının və ticarət dövriyyəsinin artmasına imkan verəcək. Nəticə etibarilə, bu, xüsusən də Naxçıvanda istehsal edilən məhsulların Türkiyə və Türkiyə vasitəsilə daha geniş bazarlara çıxarılması baxımından vacib bir layihədir və ümumiyyətlə, hər bir bölgənin inkişafı nəqliyyat və kommunikasiyaların səviyyəsindən və infrastrukturunun inkişafından birbaşa asılıdır. Qardaş Türkiyə ilə Naxçıvan arasında dəmir yolu xəttinin istifadəyə verilməsi Naxçıvanın inkişafı baxımından yeni mərhələ kimi xarakterizə olunur.

– Qars-İğdır-Naxçıvan dəmir yolunun gələcəkdə açılması gözlənilən Zəngəzur dəhlizinin reallığa çevrilməsinə nə kimi təsiri olacaq?

– Təbii ki, Qars-İğdır-Naxçıvan dəmir yolu Zəngəzur dəhlizi açıldıqdan sonra Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacaq. Nəzərə alsaq ki, Zəngəzur dəhlizinin Azərbaycan hissəsindəki işlərin 93 faizi artıq tamamlanıb və bu dəhlizin istifadəyə verilməsi, sadəcə, bir zaman məsələsidir. Üçtərəfli bəyannaməyə uyğun olaraq Zəngəzur dəhlizinin yaxında istifadəyə verilməsi real olacaq. Bu da praktiki olaraq Zəngəzur dəhlizi və Qars-İğdır-Naxçıvan dəmir yolu vasitəsilə Türk dünyasının birləşməsi deməkdir. Dəmir yolu vasitəsilə daha irihəcmli yüklərin daşınması mümkün olduğundan və Zəngəzur dəhlizinin də gələcəkdə Şimal-Cənub nəqliyyat dəhlizinə inteqrasiyası nəzərdə tutulduğundan Qars-İğdır-Naxçıvan dəmir yolunun geosiyasi və strateji əhəmiyyəti daha da artacaq və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlar üçün ixrac imkanları da genişlənəcək.

– Bəs bu dəmir yolunun gələcəkdə nə kimi müştərək bölgəsəl layihələrin reallaşmasına təsiri ola bilər?

– Təbii ki, Qars-İğdır-Naxçıvan dəmir yolu mühüm birgə layihədir və Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən belə müştərək layihələr regionda enerji və qeyri-neft sahəsi üzrə digər layihələrə də təkan verəcək. Belə ki, bu dəmir yolu ilə yaranacaq yeni nəqliyyat imkanları Azərbaycan iqtisadiyyatının daha da şaxələndirilməsi üçün yeni layihələrə imkan yaradacaq. Həyata keçirilən müştərək layihələr isə, bütövlükdə, ölkəmizin geosiyasi mövqeyini daha da möhkəmləndirəcək.

– Müsahibə üçün sağ olun!

✍ **Əli CABBAROV**

Sənaye Parkı Naxçıvana investisiya cəlbinə, əhali məşğulluğunun artırılmasına töhfə verəcək

"Sənaye parkları ölkədə qeyri-neft sektorunun inkişafı üçün ən zəruri strukturlaşdırılmış, ixtisaslaşdırılmış istehsal ərazilərindən biridir. Naxçıvan Muxtar Respublikasının da Azərbaycanın ayrılmaz tərkib hissəsi olaraq ölkəmizin əsas hissəsinə inteqrasiyası baxımından bu tip parkların yaradılmasına ehtiyac var idi. Prezident İlham Əliyev ötən il dekabrın 5-də bununla bağlı müvafiq Sərəncam imzaladı. Konkret olaraq, həmin dövlət sənədinin, daha dəqiq desək, Sənaye Parkının yaradılmasının Naxçıvan iqtisadiyyatına verəcəyi töhfələr baxımından, birinci növbədə, məşğulluğun artırılması diqqəti çəkir. Çünki hazırda Naxçıvan sakinlərinin bu məsələdə böyük ehtiyacı vardır. Başqa sözlə, məşğulluq insanların daha çox hiss edə biləcəyi istiqamətdir".

Bu sözləri "Şərq qapısı"na açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov söyləyib.

O qeyd edib ki, təbii olaraq, Sənaye Parkı istehsal prosesinin formalaşması, Naxçıvana investisiyaların cəlbi, sənaye sahələrinin, ələlxüsus da, bu tipli müəssisələri xammalla təchiz edə biləcək digər sahələrin inkişaf etdirilməsinə də öz töhfəsini verəcək. Bu Sənaye Parkı, eyni zamanda yeni xidmət sahələrinin formalaşmasına, sənaye zonasına, sənaye parklarına məhsul verə biləcək digər KOB-ların yaranmasına xidmət etmiş olacaq. Sonda isə artıq Naxçıvanın ixrac potensialı yüksələcək.

İqtisadçı-ekspert vurğulayıb ki, ixrac potensialının yüksəlməsi, təbii olaraq, Naxçıvanda istehsal olunacaq sənaye məhsullarının Türkiyəyə, İrana rahat şəkildə ixracına imkan yaradır ki, məhz bu amil Sənaye Parkının inkişafı üçün əlavə fürsətlər verir: "Bildiyimiz kimi, Sənaye parkları dövlət tərəfindən yaradılaraq onlara önəmli imtiyazlar təqdim edilir və bu imtiyazlar sayəsində parkda fəaliyyət göstərən KOB, ümumiyyətlə, digər təsərrüfat subyektləri xarici bazarlarda rəqabətqabiliyyətli məhsul istehsal etmək imkanı qazanır. Yəni dövlət olaraq proseslər yaradılır".

"Hesab edirəm ki, Zəngəzur dəhlizinin açılmasından sonra Sənaye parkları yeni fürsətlər qazanacaqlar. Və məhz Azərbaycanın işğaldan azad etdiyi ərazilər – Naxçıvan və Türkiyə istiqamətində Orta Dəhlizin yeni bir seqmenti yaranacaq. Bütün iqtisadi fəaliyyət növləri, o cümlədən də Sənaye parkları bu seqmentdən yararlana biləcək",– deyə Eldəniz Əmirov əlavə edib.

Azərbaycandan Azərbaycana – *Naxçıvana nəqliyyat əlaqəsi bizim üçün çox vacibdir*

Vətən savaşı qələbə ilə başa çatdıqdan, üçtərəfli bəyanatın imzalanmasından sonra bütün dünya Cənubi Qafqazda yeni eranın da başlanması üçün əsaslı bir zəmin yaranacağını düşünürdü. Regionda uzun zaman qapalı qalmış iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasını şərtləndirən üçtərəfli bəyanat Cənubi Qafqazda bu zamanadək heç vaxt mümkün görünməyən sülh və əməkdaşlıq mühitinin artıq reallaşdırılmasına doğru atılmış əhəmiyyətli bir addım kimi qiymətləndirildi. Prezident İlham Əliyev sülh müqaviləsinin də tezliklə imzalanacağına əminliyini bildirərək vurğulayıb: ***"Sülh müqaviləsinin beş prinsipi mümkün qədər tez paraflanmalıdır, sülh müqaviləsinin mətni üzərində iş bu prinsiplər əsasında başlamalıdır. Əminəm ki, buna tez nail olmaq mümkündür. Çünki hesab etmirəm ki, bu, hansısa çoxcildlik olmalıdır, bu, beynəlxalq hüquq, beynəlxalq təcrübə çərçivəsində parametrləri müəyyən edən bir neçə maddədən ibarət yetərincə yığcam sənəd olmalıdır. Bununla biz müharibə, düşmənçilik səhifəsini qapadacağıq".***

Qəbuledilən bir gerçəkdir ki, Azərbaycan Qafqazda separatçı bir rejimi çökdürdü və regionda davamlı sülhə nail olmaq üçün önəmli addımlar atır. Dünyaya sülh mesajları verir. Lakin 30 ilə yaxın torpaqlarımızı işğalda saxlayan qonşu dövlət sülhün tezləşmə prosesinə mane olmaq üçün əlindən gələni edir. Müharibədən öncəki dövrlərdə belə düşmən dövlətin baş nazirinə beynəlxalq görüşlərdə cənab İlham Əliyev tarix dərsi keçdi və tutarlı cavablar verdi. Antalyada keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında keçirilən görüş forumun diqqətçəkən məqamlarından biri oldu. Tərəflər Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin mətninin yekunlaşdırılmasından sonra normallaşma prosesinin hazırkı vəziyyətini müzakirə ediblər. Xarici işlər nazirlərinin görüşündə Azərbaycan xarici işlər naziri sülhün təmin olunması üçün dövlətimizin atdığı addımlardan danışaraq bildirib ki, Ermənistandan fərqli olaraq Azərbaycan Konstitusiyasında qonşu dövlətə torpaq iddiası yer almır. Ermənistan öz konstitusiyasını dəyişməsə, sülh müqaviləsini imzalamaq mənasız görünür. Minsk qrupunun ləğvi və konstitusiyada dəyişiklik olunmasının vacibliyini vurğulayan xarici işlər naziri qeyd edib ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz əlaqənin təmin edilməsi çox vacibdir, 2020-ci ildə imzalanan üçtərəfli bəyanatda bu barədə nəqliyyat əlaqəsinin açılması ilə bağlı konkret maddə mövcuddur. Azərbaycanda unikal vəziyyət var. Və bu ondan ibarətdir ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa quru nəqliyyat əlaqəsi yoxdur.

Xarici işlər naziri qeyd edib ki, Azərbaycanın əsas hissəsindən Naxçıvana gedən dəmir yolu sovetlər birliyi vaxtından mövcuddur və bu dəmir yolu Azərbaycan dəmir yolu sisteminin bir hissəsi olub və Azərbaycan dövləti tərəfindən idarə edilib. Nəqliyyat əlaqəsinin olmaması ucbatından Naxçıvan illərdir, blokada vəziyyətində yaşayır. Ona görə də Azərbaycandan Azərbaycana nəqliyyat əlaqəsi bizim üçün çox vacibdir.

Bu debatı izləyəndə qeyri-ixtiyari Naxçıvanın ilk dəfə blokadaya salındığı illər, cəbhə kəndlərində yaşadığım günlər gəldi ağlıma. Çöräklə, soyuqla imtahan olunduğumuz günlər, çıraq işığına belə həsrət qaldığımız gecələr, yaşadığımız kəndlərə düşən alazanlara tuş gəlməmək üçün zirzəmidə yaşadığımız anlar... 2004-cü ildən sonra yaşadığım kənddən gözlə görünən ərazilərdə Ağdam rayonunun işğalda olan kəndlərində var-gəl edən erməni texnikaları canlandı gözlərim önündə. Və ataların "Haqq nazilər, amma üzülməz" misalı gəldi ağlıma. Bəli, haqq nazildi 30 il, amma üzülmədi. Xalqına arxalanan Sərkərdə öz məğlubedilməz ordusu ilə cəmi 44 gündə düşməni diz çökdürdü və tarixin axışını dəyişdi. Bu gün bütün dünya səviyyəli toplantılarda Azərbaycanı təmsil edən hər bir nümayəndə başı dik, alnıaçıqdır. Çünki biz haqlıyıq, çünki biz qalibik.

✍ **Ramiyə ƏKBƏROVA**

Azərbaycanı beynəlxalq logistik mərkəzə çevirən qlobal layihə

Prezident İlham ƏLİYEV:

"Onu da bildirməliyəm ki, adətən, nəqliyyat mərkəzləri statusuna malik olan ölkələr o ölkələrdir ki onların açıq dənizlərə çıxışı var. Bizim isə dünya okeanlarına çıxışımız yoxdur. Amma buna baxmayaraq, gördüyümüz işlər nəticəsində biz Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevirmişik".

(əvvəli 1-ci səhifədə)

Çin-Qazaxıstan sərhədindən başlayan Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçərək Asiyanı Avropa ilə birləşdirən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, digər bir deyişlə Orta Dəhliz ilbəil beynəlxalq iqtisadi münasibətlərin gücləndirilməsindəki rolunu artırır. Son illərdə bu dəhliz üzrə yükdaşımaların həcmi 8 dəfə artıb. Müqayisə üçün bildirək ki, əgər 2021-ci ildə daşınan yüklərin həcmi 560 min ton idisə, 2024-cü ildə bu rəqəm 4,5 milyon tona çatıb. Bu il üçün proqnoz 4,9 milyon ton, 2029-cu ilə qədər isə yükdaşımaların 10 milyon tona çatacağı gözlənilir. Dünya Bankının proqnozuna əsasən 2030-cu ilə qədər Orta Dəhlizlə yükdaşımaların həcmi 3 dəfə artacaq. Bu mühüm layihədə birləşdirici funksiya daşıyan, başqa sözlə, Asiya-Avropa ticarət əlaqələrinə körpü salan Azərbaycan üçün Orta Dəhlizin iqtisadi əhəmiyyəti olduqca mühümdür. Bu dəhliz ölkəmizə yalnız ticarət daşınmalarından yaxşı gəlirlər qazandırmır, eyni zamanda özəl sektorun inkişafı üçün əlverişli biznes mühiti yaradır, geniş imkanlar açır. Marşrutun keçdiyi hissələrdə yeni müəssisələrin yaradılması bu baxımdan ölkəmizin əsas hədəfləri sırasındadır və mühüm perspektivlər vəd edir.

Azərbaycan-Çin strateji tərəfdaşlığı – Orta Dəhlizin əhəmiyyətinin artırılmasında mühüm faktor

Orta Dəhlizin əhəmiyyətli bir layihəyə çevrilməsi prosesində maraqlı tərəflərdən biri, bəlkə də, birincisi, dünya ticarətində böyük paya, rola sahib Çindir. Rəsmi Pekinin irəli sürdüyü, tarixi İpək Yolunun bərpasına xidmət edən "Bir kəmər, bir yol" təşəbbüsü bu baxımdan mühüm əhəmiyyət daşıyır. 2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə həmin layihəni praktiki şəkildə təsdiqləmiş olan ölkəmizin bu mütərəqqi addımı Çin hökuməti tərəfindən yüksək dəyərləndirilir. Ötən il iyulun 3-də Azərbaycanla Çin arasında imzalanan Strateji Tərəfdaşlıq Bəyannaməsi də məhz rəsmi Pekinin dəstəyinin ifadəsi kimi Orta Dəhlizin rentabelliyinin artırılmasına, ticarət dövriyyəsinin gücləndirilməsinə töhfə verib. Belə ki, həmin Bəyannamədə Çin tərəfi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) tikintisində və istismarında fəal iştirak etməyə, Çin-Avropa və əksinə, istiqamətdə Cənub dəhlizinin yük qatarları üçün fasiləsiz işini və sürətləndirilmiş inkişafını birgə təşviq etmək məqsədilə Azərbaycanla və marşrut boyu yerləşən digər ölkələrlə daha sıx işləməyə, regional praktiki əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərtlər yaratmağa, istehsal-təchizat zəncirlərinin təhlükəsizliyini və sabitliyini birgə təmin etməyə hazır olduğunu bildirir. Ümumiyyətlə, Orta Dəhliz iki dövlət arasında son 10 il ərzində iqtisadi sahədə əsas müzakirə mövzusudur.

Azərbaycan-Çin Strateji Tərəfdaşlığı çərçivəsində ötən il bir sıra əhəmiyyətli işlər həyata keçirilib, Orta Dəhlizlə yükdaşımalarda növbəti nailiyyətlərdən biri kimi mart ayında Sian limanından birinci konteyner blok-qatarı yola salınıb. İlk qatar Bakıyadək məsafəni 11 günə qət edib. Noyabrın 24-də isə Bakı-Sian ilk ixrac blok-qatarı ilə 62 ədəd 40 futluq konteyner həcmində 1664 ton koks yükü multimodal olaraq Qazaxıstan üzərindən Çinin ən böyük quru limanlarından biri olan Siana göndərilib. Bununla da yerli sahibkarlar üçün yüklərini birbaşa Çin bazarına çıxarmaq imkanı yaradılıb. Genişlənən əməkdaşlıqlar fonunda 2025-ci ildə Çindən Azərbaycan və Avropa istiqamətində göndərilən blok-qatarların sayının 3 dəfədən çox artırılaraq il ərzində 1000-ə çatdırılması planlaşdırılır. Reallaşdırılan birgə layihələr timsalında ötən il Azərbaycan-Çin ticarət tərəfdaşlığı xeyli gücləndirilib, ölkələrarası xarici ticarət dövriyyəsi 20,7 faiz artaraq 3,7 milyard dollar təşkil edib. Bu göstərici ilə Çin Rusiyanı qabaqlayaraq Azərbaycanın əsas ticarət tərəfdaşına çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsinə, bu xüsusda Orta Dəhliz layihəsinin əhəmiyyətinə toxundu, dəhlizin yükdaşımalarındakı payının artacağını, Azərbaycan seqmentinin infrastrukturunun daha təkmilləşdirilməsinin vacibliyini vurğuladı. Sitat: ***"Bizim hədəfimiz ticarət limanında 15 milyon ton yükaşırma qabiliyyətinə malik olmaq idi və bu da onilliklər ərzində yetərli olardı. Lakin indi biz ola bilsin ki, növbəti 5-6 ildə 25 milyon ton yük qəbul etməyi gözləyirik. Beləliklə, biz hazırda dəniz ticarət limanımızın və dəmir yolu infrastrukturumuzun genişləndirilməsini maliyyələşdiririk".***

Orta Dəhlizin imkanlarını artıran mühüm layihələr – BTQ, Zəngəzur dəhlizi

Ölkə başçısının dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan Orta Dəhlizin potensial imkanlarını yüksək dəyərləndirərək nəqliyyat infrastrukturunun inkişafına, daim təkmilləşdiriməsinə mühüm töhfələr verməyə çalışır. Bu, Prezidentin 2023-cü il 23 noyabr tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı"nda öz əksini tapıb. Sənəd nəqliyyat sahəsində, xüsusilə tranzit yükdaşımalarında qlobal trendləri nəzərə almaqla mövcud vəziyyətin təhlilini və Azərbaycan Respublikasının tranzit potensialının daha da artırılması üçün hədəf göstəriciləri, məqsədləri, prioritet istiqamətləri və Tədbirlər Planını özündə ehtiva edir. Fəaliyyət planının hədəf göstəriciləri mövcud infrastrukturun təkmilləşdirilməsi, tranzit əməliyyatları zamanı inzibati prosedurların optimallaşdırılması, aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiyanın yaxşılaşdırılması və vahid platforma üzərindən tətbiqi, tranzit daşımalar zamanı sərhədkeçmə müddətinin minimuma endirilməsi, eləcə də sahə üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsi yolu ilə Azərbaycan Respublikasının ərazisindən daşınan tranzit yükdaşımalarının həcminin 2024-2026-cı illər ərzində 2022-ci ilə nisbətən 27 faiz artırılaraq 10,7 milyon tondan 13,6 milyon tona çatdırılmasıdır. Artıq Dövlət Gömrük Komitəsi sözügedən dəhliz boyunca tranzit daşınmaların rəqəmsallaşdırılması və ümumi tranzit portalının yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsinə başlayıb.

Əvvəldə də qeyd etdiyimiz kimi, Orta dəhlizin əsas hissələrindən biri də Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən strateji nəqliyyat layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yoludur. O həmin yoldur ki bu gün Zəngəzur dəhlizini qeyri-effektiv, əhəmiyyətsiz proyekt kimi qələmə verən dırnaqarası qərbyönümlü dairələr vaxtilə çəkilişinə hər vəchlə mane olmağa, ölkəmizin bu istiqamətdə atdığı addımlara kölgə salmağa çalışırdılar. Ancaq Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, diplomatik gedişləri qarşısında heç bir kənar müdaxilə, heç bir siyasi manipulyasiya layihənin reallaşması prosesinə təsir göstərə bilmədi. Ötən qısa zaman kəsiyində beynəlxalq və regional əhəmiyyətli ictimai-siyasi proseslər, layihə üzrə maraqların gün ötdükcə daha böyük mənada kəsişməsi qalib liderin *"Bakı-Tbilisi-Qars dəmir yolu tək ölkələri deyil, qitələri birləşdirəcək. Azərbaycanın irəli sürdüyü layihələrin heç biri uğursuz olmayıb"* ideyasında haqlı olduğunu bariz şəkildə ortaya qoydu. Nəticə etibarilə, bu gün bir sıra inkişaf etmiş ölkələr Azərbaycan ərazisindən keçən yüklərin Mərkəzi Asiyadan Avropaya və əks-istiqamətə BTQ ilə daşınmasına böyük maraq göstərirlər. Artan ticarət imkanları nəzər alınaraq 2024-cü ildə aparılan modernləşdirmə işlərindən sonra dəmir yolunun illik yükdaşıma qabiliyyəti 5 milyon tona yüksəldilib. Bir faktı da qeyd etmək yerinə düşər ki, Orta Dəhlizin əsas hissələrindən hesab olunan Bakı-Tbilisi-Qars dəmir yolu zamanında tikilməsəydi, bu gün ölkələrarası nəqliyyat əlaqələrində çatışmazlıq açıq-aşkar nəzərə çarpacaqdı və bu da, təbii olaraq, iqtisadiyyatlara təsirsiz ötüşməyəcəkdi. Ancaq təqdirəlayiq haldır ki, Azərbaycan dövlətinin uzaqgörən siyasəti, qətiyyətli mövqeyi sayəsində reallığa çevrilən layihə, aid ölkələrin dəmir yolu nəqliyyatının da müasirləşdirilməsinə, inkişafına yol açdı, ticari əməkdaşlıqları daha da dərinləşdirdi, turizm imkanlarının genişlənməsinə təsir göstərdi.

Əminliklə demək olar ki, BTQ-nin yükdaşıma qabiliyyətinin yüksəldilməsi ilə paralel gələcəkdə Zəngəzur dəhlizinin açılması Orta Dəhlizin əhəmiyyətini daha da artıracaq, marşrutun əvəzolunmaz hissəsi kimi Azərbaycanın iqtisadi, siyasi zəmanəti xeyli möhkəmlənəcək. Qədim İpək Yolunun bərpasına xidmət edən bu addım, eyni zamanda Türk dünyasının birliyinin daha da gücləndirilməsinə, ölkələrarası daşınmaların səmərəsini, ticarətin dövriyyəsini artırmaqla yeni strateji tərəfdaşlıqların qurulmasına geniş imkanlar açacaq.

"Şərq qapısı"

Naxçıvan Muxtar Respublikası şəhərlərinin Baş planları hazırlanır

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsinə dair Tədbirlər Planının 8.10.6 və 8.10.7-ci bəndlərinə uyğun olaraq 2023-2025-ci illər üçün Naxçıvan iqtisadi rayonunun ümumi planının, habelə şəhərlərin Baş planlarının hazırlanmasında əsas icraçı Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi müəyyən edilib. Naxçıvan iqtisadi rayonunun ümumi planının hazırlanması Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Dövlət Baş Layihə İnstitutu tərəfindən hazırlanır və bu istiqamətdə işlərin icrası davam etdirilir".

Bu sözləri jurnalistlərə açıqlamasında Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə aparıcı məsləhətçi Vəsilə Allahverdiyeva deyib. O bildirib ki, eyni zamanda şəhər torpaqlarından istifadə növlərini müəyyən etməklə Naxçıvan Muxtar Respublikası şəhərlərinin Baş planlarının hazırlanması istiqamətində Naxçıvan şəhərinin Baş planının icraçısı Böyük Britaniyanın "Chapman Taylor" şirkətinin, həmçinin sifarişçi Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndələri tərəfindən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyində 6 (altı) dəfə təqdimat keçirilib: "Keçirilmiş təqdimatlarda ərazilərin inkişafı, funksional zonalaşdırma və planlaşdırma strukturu, mühəndis-nəqliyyat infrastrukturu, təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi, istehsal, mühəndis-nəqliyyat təminatı obyektləri və digər infrastrukturların formalaşması, həmçinin məskunlaşma sisteminin mərkəzi və ya köməkçi mərkəz olan yaşayış məskənlərinin təsir zonası hüdudlarında perspektivdə inkişaf etdiriləcək əmək, mədəni-məişət və landşaft-rekreasiya (yaşıllıq) əlaqələri və obyektləri müzakirə olunub və məsələlərlə bağlı müvafiq təkliflər verilib. Böyüməkdə olan muxtar respublikanın şəhərlərində yaşayan əhalinin mənzilə olan tələbatının təmin edilməsini nəzərə alaraq şəhər ərazisində yerləşən torpaq sahələrində çoxmənzilli yaşayış binalarının tikintisi nəzərdə tutulub. Belə ki, artıq Naxçıvan şəhərində həmin tikintilər üçün yer ayrılıb, habelə sahibkarların mülkiyyətində olan torpaq sahələrində tikinti layihələrinə şəhərsalma əsaslandırılması və memarlıq-planlaşdırma baxımından müvafiq qanunvericiliyin tələblərinə uyğun rəylər verilməsi təmin edilib. Belə ki, tikintisi nəzərdə tutulan 10,3 hektar torpaq sahəsində, ümumilikdə, 1460 mənzil olmaqla, 47 yaşayış binasının bütün tikinti layihə sənədləri Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Baş planının icraçısı "Chapman Taylor" şirkəti ilə razılaşdırılıb və tikintiyə icazə icraatı həyata keçirilib".

Qeyd olunub ki, həmçinin Ordubad və Şahbuz şəhərlərinin Baş planının hazırlanması ilə bağlı icraçı İsveçrənin "SA_Parners" şirkəti tərəfindən 3 (üç) dəfə təqdimat keçirilib, şəhər sərhədləri, yaşıl sahələr, sənaye sahələri, infrastrukturlar, əsas binalar və planlaşdırılan şəhərin inkişafı və perspektivləri barədə müzakirələr aparılıb: "Əlavə olaraq bildiririk ki, Culfa və Babək şəhərlərinin Baş plan layihələrinin hazırlanmasına cari ilin əvvəlindən etibarən işlərə başlanılıb. Belə ki, Baş planların hazırlanması ilə əlaqədar, ilkin olaraq Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Dövlət Nəzarəti Agentliyinin "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunun əməkdaşları tərəfindən Culfa və Babək rayonlarına ezam olunmuş və əldə edilmiş ilkin məlumatlar əsasında hazırlıq işlərinə başlanılıb".

Onlar Naxçıvan üzrə ən yüksək nəticəni göstəriblər

Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında muxtar respublika üzrə maksimum nəticə göstərən abituriyentlər Səma İsmayılova və İbrahim Heydərovdur.

Onlar tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında, ümumilikdə, 300 bal toplayaraq maksimum nəticə göstəriblər. Biz də onları redaksiyamıza dəvət edib təəssüratlarını öyrəndik.

Şahbuz rayon Badamlı qəsəbəsindən olan Səma İsmayılova sevincini "Şərq qapısı" qəzeti ilə bölüşərək deyir: "Mənim üçün uğur qazanmağın sirri çox oxumaq deyil, düzgün şəkildə oxumaqdır. Eyni zamanda dərslərimdə əlimdən gəldiyi qədər məsuliyyətli olmağa üstünlük verirəm. Qəbul imtahanına kimi bir çox sınaq imtahanlarında iştirak edib yüksək nəticə əldə etmişəm, bu da məni qəbul imtahanına qədər daha da həvəsləndirib. Təbii ki, belə bir nəticə asanlıqla əldə olunmur. Məqsədlərim üçün daim əzm və iradə ilə çalışıram. Mənim əsas hədəfim II qrup üzrə Maliyyə ixtisasıdır və məqsədim gələcəkdə ölkəmizin inkişafına töhfə verəcək işlər görməkdir. Yüksək nailiyyətlər əldə etməyimdə özümlə yanaşı, valideynlərim və müəllimlərimin üzərimdə böyük əməyi var. Onlar hər zaman məni ruhlandırıb dəstək olmağa çalışıblar. Yüksək nəticə topladığımı eşidəndə çox sevindim, çünki özümə inanırdım. Yayda keçiriləcək qəbul imtahanının ikinci mərhələsinə – blok imtahanına daha məsuliyyətlə çalışıb yüksək nəticə əldə etməyi hədəfləmişəm. Topladığım yüksək bal üçün çox sevincli və qürurluyam, bu nəticə mənim üçün əsl motivasiya oldu".

Digər ən yüksək nəticə göstərən məktəbli Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin şagirdi İbrahim Heydərov da öz təəssüratlarını bizimlə bölüşdü: "Buraxılış imtahanında maksimum nəticəni göstərdiyim üçün çox şadam. Çünki bu nəticəni əldə etmək üçün çox çalışmışam və bu gün əziyyətlərimin bəhrəsini görmək məni sevindirir. Elə bu sevincimi ilk dəfə burada sizlərlə bölüşürəm. Əgər məqsədə çatmaq üçün çalışsaq, nəticə hər zaman ürəkaçan olacaqdır. Əziyyət çəkən hər kəs, sözsüz ki, bəhrəsini görər. Bu uğurdan ötrü özümü çox xoşbəxt hiss edirəm. II ixtisas qrupu üzrə hazırlaşıram. Arzum gələcəkdə Maliyyə menecmenti ixtisasına qəbul olmaq və bu sahədə özümü təkmilləşdirərək maliyyəçi olmaqdır. Bu cür nailiyyətə imza atmaq möhtəşəm bir duyğudur".

Biz də gəncləri təbrik edir və növbəti mərhələdə onlara uğurlar arzulayırıq.

✍ **Bülbül QULİYEVA**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hesabatı çap olunub

Nəfis tərtibatla təqdim olunan illik hesabat Naxçıvan Muxtar Respublikası Hökumətinin 2024-cü ildə gördüyü işlərin təhlilini özündə ehtiva edir. Hesabatda iqtisadiyyat, sosial təminat, hüquq-mühafizə və idarəetmə, infrastruktur, ətraf mühit, kənd təsərrüfatı və digər mühüm sahələr üzrə görülən işlər və əldə olunan nəticələr sistemli şəkildə təqdim olunub.

Hesabatın hazırlanmasında rəsmi statistika, dövlət qurumlarının illik hesabatları, normativ-hüquqi aktlar və digər sənədlərdən istifadə olunub. Məlumatlar analitik və müqayisəli metodlarla təhlil olunaraq cədvəl və qrafiklər vasitəsilə təqdim edilib.

Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan, bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası Naxçıvan Muxtar Respublikasında da islahatlara səbəb olub. Məhz bu strategiyanın davamı olaraq "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" qəbul edilmişdir. Proqramın əsas hədəfi regionun davamlı inkişafını təmin etməklə yanaşı, iqtisadi fəaliyyətlərin şaxələndirilməsi və əhalinin sosial rifah halının yüksəldilməsidir.

Hesabatda vurğulanır ki, iqtisadi canlanma, infrastrukturun müasirləşdirilməsi, yerli sənaye və kənd təsərrüfatının gücləndirilməsi, eləcə də sosial sahədə həyata keçirilən yeniliklər bu strategiyanın əsas istiqamətləri sırasında yer alır. Bütün bu tədbirlər Naxçıvanın iqtisadi müstəqilliyini artırmaqla yanaşı, Naxçıvan Muxtar Respublikanın rəqabətqabiliyyətli regional iqtisadi mərkəzə çevrilməsinə xidmət edir.

Prezident İlham Əliyevin bu istiqamətdəki baxışı və hesabatda yer alan fikri isə Naxçıvanın ümumi inkişaf konsepsiyasında tutduğu yeri bir daha aydın şəkildə göstərir: ***"Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda ona o qədər də uzaq olmayan Naxçıvan Muxtar Respublikası iqtisadi, sosial, "yaşıl enerji" və təhlükəsizlik nöqteyi-nəzərdən vahid bir böyük məkana çevrilməlidir. Birbirinə tarixən bağlı olan bu bölgələr hazırda vahid konsepsiya əsasında inkişaf edir".***

Zəngəzur dəhlizinin tikintisi tamamlanır

Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi hazırda 93% səviyyəsində tamamlanıb.

Bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) məlumat yayıb. Bildirilib ki, uzunluğu 123,6 km olan bu yolun tikintisi hazırda 93% səviyyəsində tamamlanıb. Layihə çərçivəsində 261 boru (16 814 m), 55 alt keçid (3781 m) və 28 körpü (2090 m) inşa edilir. Ayrıca, yol boyunca 3 tunel də tikilir, bu tunellərin ümumi uzunluğu isə 12 032 m-dir. Layihə üzrə, ümumilikdə, 28 körpü tikilir, bunlardan 16-sı suötürücü, 12-si isə yolötürücüdür. 19 körpünün tikintisi artıq yekunlaşıb, 8 körpüdə tikinti işləri davam edir. Həmçinin alt keçidlərin, 258 dairəvi, 42 düzbucaqlı boruların tikintisi də sona çatdırılıb.

Zəngəzur dəhlizi layihəsinin texniki göstəriciləri, yolun yüksək keyfiyyətlə və müasir standartlara uyğun inşa edilməsini təmin edir. Yolun ümumi uzunluğu 149,9 km təşkil edir. Əsas yolun uzunluğu isə 123,6 km-dir. Yolun texniki dərəcəsi 1B-dir, bu isə yüksək sürət və təhlükəsiz hərəkətə imkan yaradır. Yolun eni 14-21 m arasında dəyişir, torpaq yatağının eni 21,5-29,5 m, hərəkət zolaqlarının sayı isə 4-6 arasında təyin edilib. Bu, nəqliyyatın rahat və təhlükəsiz axınına zəmin yaradır.

Layihənin yaxın gələcəkdə tam olaraq istifadəyə verilməsi region üçün yeni imkanlar yaradacaq.

Əliabad qəsəbədaxili avtomobil yolunda əsaslı təmir işləri aparılır

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq bir neçə yerli əhəmiyyətli avtomobil yollarında əsaslı təmir işlərinin aparılması nəzərdə tutulub ki, bunlardan biri də Əliabad qəsəbədaxili avtomobil yoludur. Hazırda uzunluğu 9,6 kilometr olan Əliabad qəsəbədaxili avtomobil yolunda əsaslı təmir işləri həyata keçirilir. Əsas məqsəd vətəndaşların rahat hərəkətini təmin etməkdir".

Bu sözləri jurnalistlərə açıqlamasında Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Əli İbrahimbəyli deyib.

O qeyd edib ki, artıq yolun 3 kilometrlik hissəsinə ikinci qat asfalt verilib, yol çiyinlərində torpaq işləri həyata keçirilir.

"Onu da qeyd edim ki, yolda yağış sularını kənarlaşdırmaq üçün beton su kanalları və su keçidləri quraşdırılıb. İşlərin qısa bir zamanda yekunlaşması üçün agentliyin xüsusi texnikaları və canlı qüvvəsi əraziyə cəlb olunub. İşlər yekunlaşdıqdan sonra vətəndaşlar tam rahat şəkildə bu yoldan istifadə edə biləcəklər", – deyə agentliyin rəsmisi əlavə edib.

İsmayıl xan hamamı bərpa ediləcək

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında öz əksini tapmış layihələr, habelə investisiya layihələri Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən diqqətdə saxlanılır, bu istiqamətdə bir sıra işlər həyata keçirilir.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, həyata keçirilən tədbirlərin davamı olaraq XVIII əsr memarlıq abidəsi İsmayıl xan hamamı bərpa ediləcək. Abidənin bərpası üçün layihə-smeta sənədlərinin hazırlanması məqsədilə satınalma elan olunub.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən elan edilmiş satınalmaya əsasən tarixi abidənin ətrafının abadlaşdırılması, topoqrafiya və geologiya işləri, interyer dizaynı, daxili tərtibat və digər işlərin görülməsi nəzərdə tutulur.

Qeyd edək ki, nazirlik tərəfindən 2024-cü ildə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində Ordubad şəhərində yerləşən Ərbabın iş yeri və ona bitişik tarixi binanın əvvəlki vəziyyətinə qaytarılması və əsaslı təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması yekunlaşıb, Sərşəhər məscidi tarix-memarlıq abidəsinin bərpası üçün layihələndirmə işlərinə başlanılıb.

Gələcəkdə də muxtar respublika ərazisində tarixi abidələrin qorunması və bərpası istiqamətində işlər davam etdiriləcək.

Eluca Atalı: "Tamaşanı onlarla birgə izləmək mənə daha da həyəcan gətirir"

İsveçrədə yaşayan azərbaycanlı yazıçı, uşaqlar üçün pyeslər müəllifi Eluca Atalı dünyanın bir sıra ölkələrində tanınır. Onun əsərləri müxtəlif dillərə tərcümə olunaraq müəllifinə böyük şöhrət qazandırmışdır. Bu günlərdə o, Naxçıvan şəhərinin qonağı oldu, yazıçı ilə görüş keçirildi. Biz də bu imkandan istifadə edərək onunla həmsöhbət olduq: "Naxçıvana gəlişimin məqsədi xüsusi olaraq, ilk növbədə, yeni pyeslərimin nümayişini görmək idi. Bir dramaturq kimi pyeslərimin səhnə həyatına baxmaq mənə yaradıcılıq stimulu verir. Həm də pyesi yazan zaman bir növ nəzəri baxımdan işləyirsən. Səhnə həlli isə ideyanın açılışıdır. Eyni zamanda burada olarkən oxucularımla eyni zalda əyləşib tamaşanı onlarla birgə izləmək mənə daha da həyəcan gətirir. Onu da deyim ki, uşaqlar üçün pyes yazmaq özü bir məsuliyyətdir. Həmişə çalışıram, bu məsuliyyətin altından uğurla çıxım. "Yaşıl enerji"yə həsr olunmuş "Odunçunun nağılı" pyesim COP29-da oynanıldı. Həmçinin Naxçıvanda "GreenFest"də oynanıldı. Uşaqların üzlərindəki təbəssüm, aktyorlarla birgə hərəkət etmələri məni çox sevindirdi. Onlar ritmi birlikdə tuta bilmişdilər.

Budəfəki səfərimdə Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının səhnəsində "Ənqa quşu" adlı əsərim təqdim olundu. Təəssüf ki, burada öncədən səhnələşdirilsə də, canlı tamaşa etmək imkanım olmamışdı. Sevindirici haldır ki, "Ağ göyərçin" adlı pyesim də həmin teatrda səhnələşdiriləcək. Burada rejissorlarla, aktyorlarla, eləcə də oxucularımla da görüşdüm".

Həmsöhbətimizin sözlərinə görə, ötən il onun yaradıcılığı üçün ən məhsuldar il olub və 8 pyes yazıb. Bunların beşi monotamaşadır. Deyir ki, indi səhnələrdə monotamaşalara böyük ehtiyac var. Ancaq nədənsə bu janrda yazanlar azdır. Monotamaşalardan biri – "Bir cüt göz" Vəfa Qulamzadənin ifasında oynanılacaq. İctimailəşən qadın obrazıdır. Digərləri isə böyük səhnə üçün nəzərdə tutulub.

Eluca Atalı bu il tərcümələrlə də məşğul olub. "Ənqa quşu" kitabı uyğur dilinə tərcümə olunaraq uyğur məktəblərinə paylanılıb. Kitablarının ölkəmizlə yanaşı, Türkiyə, Kosova, Özbəkistan, Makedoniyada liseylərdə keçilməsi üçün səy göstərib. Onlarla bağlı ustad dərsləri keçib: "Onu da demək istəyirəm ki, illər öncə Naxçıvanda olmuşdum. Yaxşı xatırlayıram. Nuh Peyğəmbərin ayağı dəyən bu torpağın sakinləri səmimidirlər, qonaqpərvərdirlər. Naxçıvanın gözəl tarixi abidələri var. İnsanları da sağ olsunlar ki, həmin abidələri qoruyub saxlayırlar. Budəfəki səfərimdə də Naxçıvanı çox səliqəli şəhər kimi gördüm. Bura adama ruh verir. Yurdumuz hər yerdə dirçəlir. Eyni zamanda Naxçıvanda görülən yenidənqurma işləri adamı fərəhləndirir".

✍ **Aidə İBRAHİMOVA**

Bura Zəngəzura keçid kəndidir

✍ Ceyhun MƏMMƏDOV

Uzaqdan başıqarlı dağlar görünür, fikirləşirik, yəqin, 20 dəqiqəyə kənddə olarıq. Yolu getdikcə görünən dağın dibi daha da uzaqlaşır, dağlar görünsə də, yolumuzun uzaq olduğunun fərqinə varırıq. Keçiliyə çatmağımız bir saatdan bir qədər çox vaxt apardı: ilk evlər görünür, ələlxüsus, bacalarından çıxan duman havanın hələ də soyuqluğundan xəbər verir. Kəndə yaxınlaşdıqca havanın sərinliyini və dağların ətəyində olan qarı sovurub insanın üzünə çırpan küləyi hiss edirsən. Günəşli yaz günü olsa da, qışın nəfəsi hələ də duyulur. Dağların döşündə ağacların yeni açılmış yaşıl rəngli yarpaqları, bəzilərinin ağ çiçəkləri, əriyən qarın hündürlükdən özünə şırım açaraq şırıltı yaratması, boylanan günəşin rənglərini özündə ehtiva edən havanın təmizliyi füsunkar təbiət harmoniyası yaradır.

Kəndin mərkəzinə doğru getdikcə evlərin də sayı çoxalır, evlər təpələrin üzərində pilləli şəkildə tikilib, damları fərqli örtüklərlə örtülüb, tikililər isə, sadəcə, çay daşındandır. Deyirlər, buradakı evlərin əksəriyyətinin yaşı 100 ili haqlayıb. Evlərin həyətində axan suları, təmizlənərək yandırılan quru otlardan çıxan dumanı və heyvandarlıqla məşğul olan insanları görmək mümkündür. Və bir də yazın gəlişini səbirsizliklə gözləmiş, günəş altında oynayan uşaqları... Təəccüblü və maraqlı baxışlarla bizi sezirlər.

Keçilidə hər şey əsrlər öncəni xatırladır, sanki nağıllarda təsəvvür etdiyin evləri, başı buludlara söykənən dağları görmək mümkündür. Kənd sakinləri bizdən fərqli olaraq qış geyimindən çıxmayıb.

Kəndin mərkəzi meydanında bir neçə ağsaqqal bizi görərək yaxınlaşır. Yad adama ehtiram əlamətidir bu hərəkət, qonaqpərvərlik göstərirlər. "Qonağımız olun", – deyirlər. "Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə ilə görüşəcəyik", – deyirik, bu zaman cavan bir oğlan yaxınlaşır: "Sizinlə telefonda danışan mən idim". Məlum olur ki, nümayəndənin müavinidir – Əli Zeynalov. Uzun illərdir, tanıyırmış kimi söhbətləşirik, kəndin tarixi haqqında danışır, deyir ki, kənd ağsaqqalları bu barədə çox məlumatlıdırlar. Onlar, adətən, kəndə aid olan bütün xüsusiyyətləri hər kəsə çatdırmaq istəyirlər, elə yerli sakin Əli Əliyev kimi. Deyir ki, bu kəndin adının mənşəyi yer səthinin quruluşu, iqlim şəraiti ilə əlaqədar "keçid" şəklində mənalandırılır ki, bu mülahizə də Keçili kəndinin keçmiş adının Zimmi keçidi olması ehtimalını artırır: "keçid" sözü isə "bir yerdən başqa yerə keçmək üçün yol", "keçəcək", "iki dağ arasında olan dar boğaz" mənasında işlənir və Zimmi keçidi adı yer səthinin quruluşu ilə bağlı dağ ortası, iki dağ arasında olan yer, məkan mənasını verir. Zəngəzur silsiləsinin yamacında yerləşən bu qədim yurd yeri əvvəllər Xaraba Keçil kənd yeri olub, orada yerləşib. Elə Keçil qəbiristanlığı və başqa maddi mədəniyyət abidələri burada yaşayışın qədimdən mövcud olduğunu təsdiqləyir. Hə, bir də kəndin mərkəzindəki qədim məscid binası. Sakinlər deyir ki, bu binadan sovet dövründə anbar kimi istifadə edilsə də, sonra yenidən təmir olunub və istifadəyə verilib.

Bir keçid kəndidir bura, Zəngəzura keçid. Özünün yaylaqları, çoxsaylı bulaqları ilə tanınır. Deyilənə görə, Keçilidə Hacılı, Əşkaflı, Sofulu, Alməmmədli, Zeynalxanlı, Qızıllı, Hacı Ələkbər adlı türkdilli Oğuz tayfaları yaşayıb. Günəşin qızmarı soyumadan Əli Zeynalov bizi yaxınlıqda görünən Camaldağ tərəfə aparır. Bununla yanaşı, kəndin məhəllələri ilə tanış oluruq: palçıq kərpicdən, çay daşlarından divarlar, kobud daşlar döşənmiş yollar, çəpərə alınmış samanlar, ağaclardan budanmış odunlar, ensiz küçələr, rəngsiz divarlar, küçədə gəzişən pişiklər, toyuq-cücələr, tarixin izlərini daşıyan köhnə evlər və daha nələr-nələr. Kəndin yol kənarlarında özünün əzəməti ilə seçilən cəviz ağacları sıralanıb, həyətlərdə isə meyvə ağacları üzərində yeni açmış çiçəklər əlavə gözəllik bəxş edir. Həyətlərə borularla bulaqlardan çəkilən su kənd sakinlərinin bu yöndən korluq çəkmələrinə imkan vermir. Yuxarı qalxdıqca hava daha da soyuyur, meyvə ağaclarının üzərində çiçəklər görünmür, lakin dağ yamaclarının yaşıllığı göz oxşayır. Həmsöhbətim deyir ki, kəndin aşağı hissəsində ağaclar çiçək açanda yuxarı hissəsində hələ də soyuq olur. Elə buna görə də kəndin adı ilə tanınan məhəllələri var: Zoğala, Alməmmədli, Şorçay, Aşağı məhəllə, Yuxarı məhəllə, Quzey məhəllə. Sonuncu məhəllə daha çox diqqətimizi cəlb edir. Sakinlər deyir ki, kəndə ilk qar ora yağar və yalnız yazın son günlərində əriyər.

Keçili kəndi muxtar respublikanın əksər yaşayış məskənləri kimi, bağ-bağatlı, təmiz havalı, səfalıdır, insanları isə mərddir. Məhəllələrin dolanbac yollarına baxıb düşünürsən: Keçilini belə mərd edən, insanlarını qorxmaz yaradan da elə bu yollardır. Bəlkə, bu səbəbdəndir, sovet rejiminə qarşı ilk dəfə mübarizəyə başlayan bölgələrdən biri olub Keçili. Həmin dövrdə sadə kənd camaatı silaha sarılaraq sovet hökumətinə qarşı böyük bir hərəkata başlayıb və bu hərəkat tarixə Qaçaq hərəkatı kimi düşüb. Maraqlı nüans bu hərəkata sonradan muxtar respublikanın bütün bölgələrinin qoşulması və hərəkata gənclərin başçılıq etməsi idi. Amma 1934-cü ilin payızında sovet hökuməti bu üsyanı çox amansızlıqla yatırmış, ədalət, müstəqillik, azadlıq istəyən insanların çoxunu isə Vətən xaini adıyla güllələmişlər.

Artıq geri qayıtmaq vaxtıdır, havanın sərinliyi yerini artıq sərt küləyə verib, köhnə məhəllələri gəzərək vaxtın necə keçdiyini hiss etməmişik. Mal-qara çöldən qayıdır, sanki "evlərini" tanıyırmış kimi yanımızdan saymazyana keçir. Kəndin meydanına qayıdırıq, yenə də unudulmayan bir adətlə üzləşirik: yaşlı insanlar oturub gəlib-gedənlə hal-əhval tutur, necə gəzdiyimizi soruşurlar. Cavabımız isə belə olur: "Keçili təkcə yaşayış məskəni deyil, həm də muxtar respublika tarixini, mədəniyyətini özündə birləşdirən, bunu qoruyub saxlayan bir sərhəd bölgəmizdir. Keçmiş və gələcəyin harmoniyasını özündə qoruyub saxlayan bir KEÇİDdir".



Hər qulun cahanda bir pənahı var...

Həyat şəraiti çətin olan hər kəs müraciət edə bilərmi?

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin tabeliyində "Ahıllar Evi" publik hüquqi şəxsin əsasında 2024-cü il 1 aprel tarixdə "Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi" publik hüquqi şəxs yaradılmışdır. Müəssisə Ahıl şəxslərlə iş şöbəsi və Çətin həyat şəraiti olan digər şəxslərlə iş şöbəsindən ibarətdir.

Müəssisəyə əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əməkqabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) yerləşdirilə bilər. Ahıl şəxslərlə iş şöbəsinə yaşı 70-dən yuxarı olan şəxslər qəbul edilir.

Çətin həyat şəraiti olan digər şəxslərlə iş şöbəsinə isə müvafiq kateqoriyadan olan 70 yaşdan aşağı şəxslər qəbul edilir. Bu kateqoriyadan olan sakinlər daimi xidmətə qəbul edilmir, reabilitasiya müddətləri başa çatdıqdan sonra xidmətdən çıxarılır.

Sakinlərlə söhbət

Hər iki şöbənin sakinləri üçün burada hərtərəfli şərait yaradılıb. Yaşayış baxımından heç bir sıxıntıları yoxdur. Əksinə, müəssisədəki işçilərlə də dostlaşmışlar. Birgə film seyr edir, yemək yeyir, arada da foyedəki divanda əyləşib gənclik illərindəki xoş xatirələrini bölüşürlər.

Culfa rayonunun Ərəfsə kəndindən olan Nəcibə Məmmədova o illərə qayıdır, deyir: "Həyat sürprizlərlə doludur. Bu gün burada olmağımdan narazı deyiləm. Qızım ailə qurub Bakıda yaşayır. Bu yaşımda evdə tək qalmaq mənə çətin idi. Burada bizə doğmaları kimi yanaşırlar, qayğı göstərirlər. Yaşlı adama nə lazımdır? Qayğı, diqqət, bir də əlindən tutub kömək etmək".

Kamil Şirinov isə ayrı bir aləmdədir. Masasının üstündə termosu, stəkanı, bir də dəftəri var.

– Nədən yazırsan?

– Hərdən yazıram, gah məhəbbətdən, gah da dünyanın vəfasızlığından.

Dünyanın vəfasızlığından, etibarsızlığından gileylənir Kamil kişi. Yazdığı şeirlərindən səsləndirir. Deyir, hamı bu dünyadan əliboş gedir, insan özü ilə ancaq xoş əməllərini aparır. Yaxşı ki bizi bağrına basan bu ev (müəssisə) var, yoxsa aqibətimiz necə olardı?

21 ildir, müəssisənin sakini olan milliyyətcə rus Violetta Çernışeva nəvələrinin şəklini, videolarını göstərir. Onları bizə tanıdır, barələrində danışır, gülür, sevinir, eyni anda bir neçə hiss keçirir. Dinləyirik, birlikdə şəkillərə baxırıq. Qazax əsilli Karlıqaş Malikbayeva üçün də müəssisə doğma evi olub. Yoldaşı rəhmətə gedəndən tək qalıb. Təklik çətindir deyir, burada özünə yaxşı yoldaşlar tapıb.

Çimnaz Bayramova Kəngərli rayonunun Qarabağlar kəndindəndir. Çətin həyat şəraiti olan şəxs kimi qeydiyyata alınmış və müəssisəyə yerləşdirilmişdir.

Ahıllar Evi çətin həyat şəraiti olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi olaraq fəaliyyətini genişləndirməklə xeyirxah missiyasını da artırmış olub, çətin həyat şəraiti olan insanlara da qucaq açıb. Müəssisə onları yalnız maddi çətinlikdən deyil, psixoloji gərginlikdən də izolyasiya edib.

Hazırda müəssisənin Ahıl şəxslərlə iş şöbəsi tərəfindən 8 nəfərə, Çətin həyat şəraiti olan digər şəxslərlə iş şöbəsi tərəfindən isə 3 nəfərə sosial xidmət göstərilir. Müşahidələrimizə əsasən onu deyə bilərik ki, muxtar respublikada ailə dəyərləri ciddi şəkildə qorunur, ailəsi tərəfindən tərk edilmişlər barmaqla sayılacaq qədərdir. Bu, sevindirici haldır. Nə qədər yüksək şərait yaradılsa da, hər kəsə öz ocağı əzizdir və məlhəmdir. Allah heç kimi naxələf övladla sınağa çəkməsin. Övladlar da valideynə sahib çıxma məsuliyyətini heç unutmasınlar. Bu dünyada yaxşı əməllərin də, pis əməllərin də mütləq bir qarşılığı vardır!

Şair nə gözəl demiş: "Hər qulun cahanda bir pənahı var!"

✍ **Ruhiyyə RƏSULOVA**

Hər dəfə Şahbuz istiqamətində yola çıxanda onlar yadıma düşür. Məhərrəm müəllimi, Mustafa kişini, Zeynəb nənəni, Solmaz ananı görmək keçir ürəyimdən. Mustafa kişinin şən zarafatları, Tamara xanımın ümid dolu baxışları, Həqiqət müəllimin yorğun siması gözümün önünə gəlir. Bir anda xatırlayıram ki, artıq onlar yaşadıqları talenin verdiyi ağırlıqdan usanıb, çiyinlərindən yükü astaca yerə qoyublar. Bizimlə – yer üzünün insanları ilə çoxdan vidalaşıblar...

Həyatın bizə mübarizə olduğunu öyrədiblər, özümüz də zamanla anlamışıq. Və onu da yaxşı bilirik: "Nə tökərsən aşına, o çıxar qaşığına". Bəzən insan haqq etdiyini yaşayar, bəzən də ədalətsiz çevrəsinin qurbanına çevrilər. Kənara atılar, doğma övladı belə sahib çıxmaz, bəzən də evsiz-eşiksiz ortada qalar. Bu zaman dövlət vətəndaşını öz himayəsinə alar. Qayğısına qalar, sevgi göstərər, ona öz qapılarını açar.

Şahbuz şəhərində fəaliyyət göstərən Çətin həyat şəraiti olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsinin qapısından içəri daxil oluruq. Nahar vaxtıdır. Bizi müəssisənin direktoru Nəsimi Kazımov qarşılayır. Sakinlər ikinci mərtəbədən asta addımlarla aşağı enirlər, kimisi müəssisənin işçisinin qoluna, kimisi çəliyinə söykənərək. Uzun dəhlizin pəncərəsindən çölə boylanan və baxışlarını uzaqlara zilləyən papaqlı bir kişi diqqətimizi çəkir. Əməkdaşımız Səhnə Tağızadə şəklini çəkir. Şəklin adını biz qoyuruq:

"Gözləri yol çəkən tənha adam"

Amma tənha deyil. Var kimsələri, doğmaları, tanışları. İçində yaşadıqları yoxluq onları tənhalaşdırıb. İnsan o zaman tənhalaşır ki, sevgidən, diqqətdən kənar qalır. Özünə görə varı olsa belə içini dolduran mənəvi boşluğa hakim kəsilə bilmir. Beləcə, tənhalaşır, kimsəsizləşir, kimsəsi olduğu halda. Və bir gün illərdir ki, Şahbuzda Ahıllar Evi kimi fəaliyyət göstərmiş müəssisənin qapısını döyür. Qapı açıqdır, hər zaman olduğu kimi. Müəssisənin profili dəyişəndən indi yalnız ahıllara deyil, həm də çətin həyat şəraiti olan şəxslərə də.

Naxçıvanlı tələbələr: "Rumıniyada keçdiyimiz təcrübə bizim üçün mədəni bir kəşf idi"

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə təhsil alan tələbələri beynəlxalq mübadilə proqramı çərçivəsində Rumıniyanın paytaxtı Buxarest şəhərində ümumi cərrahi əməliyyatlarda iştirak ediblər. Onlar müşahidələr aparıb, laparoskopiya üzrə simulyasiyada iştirak edərək təlimlər alıblar. Həmçinin tələbələr Buxarest şəhərində mədəni, sosial proqramlarda olub və gəzintilərdə iştirak ediblər. Həmin tələbələrdən Saime Buse Güveni, Püstəxanım Quliyevanı, Şövkət Ağayevanı və Fuad Hüseynovu redaksiyamıza dəvət edib həmsöhbət olduq, onların təəssüratlarını öyrəndik:

Püstəxanım Quliyeva: "EMSA-nın missiyası Avropada səhiyyə xidmətlərinin keyfiyyətini yüksəltmək, güclü bir Avropa kimliyi yaratmaq və mədəniyyətlərarası anlaşmanı təşviq etməklə tibb tələbələrinin səhiyyə sahəsində fəal iştirakına nail olmaqdır. İlk xarici Twinning proqramımızı həyata keçirmək üçün müxtəlif müsahibələrdən keçən 11 tələbə yoldaşımızla birlikdə Rumıniyada yaddaqalan bir təcrübə yaşadıq. Xüsusilə xarici proqramlar ixtisasından asılı olmayaraq, hər tələbə üçün sosial həyatda çoxlu bacarıqlar qazandırır. Ölkəmizdə hər yerə rahat hərəkət edə bilərkən, xarici bir ölkədə marşrut planlaşdırma, xəritə oxuma, ictimai nəqliyyat sistemlərindən istifadə və texnologiyanı effektiv şəkildə idarəetmə bacarıqlarımızı inkişaf etdirdik. Nəticədə, qənaətə gəldik ki, ya dünya, həqiqətən, kiçikdir, ya da biz qeyri-adi dərəcədə uyğunlaşma qabiliyyətinə malik fərdlərik. Peşəkar baxımdan qazandıqlarımıza gəldikdə isə, ən başlıcası, biz oraya Tibb fakültəsi tələbələri kimi getmişdik. Ünsiyyətin vacib olduğu bu sahədə nə qədər çox insanla tanış olub müşahidə aparsaq, gələcəkdə problemləri həll etməkdə və həll yolları təklif etməkdə bir o qədər uğurlu olacağımızın fərqindəyik. Bu proqram hadisələrə və insanlara qarşı dözümlülüyümüzü, çətinliklər qarşısında müqavimətimizi artıraraq şəxsi inkişafımıza əhəmiyyətli dərəcədə töhfə verdi".

Saime Buse Güven Püstəxanımın söhbətinə qoşularaq deyir: "Tibbi sahədə peşəkar səviyyədə dil təcrübəsi qazanmaqla özümüzə olan inamımız artdı və tibbi biliklərimiz daha da genişləndi.

Buxarest Onkologiya Xəstəxanasında professorlarla birgə onkoloji xəstələrdən anamnez toplamaq təcrübəsi qazandıq. Öz universitetimizdə ilk illərdən bu təlimi alsaq da, fərqli ölkədə bu prosesi müqayisə etmək imkanı qazandıq. Xəstələrə yanaşma üsulları, xəstəliyə dair verilən suallar bizim üçün səmərəli təcrübə oldu. Həmin sahənin aparıcı professorlarının açıq onkologiya əməliyyatında iştirak etmək, ortopediya əməliyyatlarını müşahidə etmək gələcək karyeramıza istiqamət verən imkanlar idi. Nəticə etibarilə, bu təcrübə gələcəkdə cərrahiyyə sahəsində, xüsusilə minimal invaziv texnikalar üzrə ixtisaslaşma düşüncəmizi daha da gücləndirdi".

Müsahibimiz deyir: "Buxarestdə keçirdiyimiz saatlar adi turist gəzintisindən daha çox mədəni bir kəşf idi. Tibb təhsili almaq insana təbiətə, cəmiyyətə və mədəniyyətə daha həssas bir gözlə baxmağı öyrədir. Buna görə də hər bir bina, hər bir heykəl, hər bir meydan mənə təkcə estetik deyil, həm də tarixi və sosial kontekstdə çox şey danışdı. Xüsusilə şəhərin memarlıq quruluşu çox maraqlı idi. Buxarest və ətrafını gəzmək üçün ayırdığımız vaxt fərqli bir mədəniyyəti yaxından tanımaq baxımından böyük fürsət idi. Şəhərin memarlığı, tarixi abidələri, muzeyləri Rumıniya mədəniyyətinin nə qədər köklü və zəngin olduğunu göstərdi. İncəsənət deyəndə ilk ağla gələn ölkələrdən biri kimi doğma Azərbaycanla müqayisə etmək fürsəti də tapdım. Buxarestin "Atheneum" konsert zalı heyran qaldığım bir yer idi və mənə Naxçıvandakı Heydər Əliyev Sarayını xatırlatdı. Bu cür səyahətlər təkcə sosial fəaliyyət deyil, həm də gələcək həkim kimi mədəni fərqlilikləri anlamaqda əvəzsiz təcrübələrdir. Gələcək peşə karyeramda fərqli insanlarla ünsiyyət qurarkən bu təcrübələrin mənə müsbət təsir edəcəyinə inanıram".

Şövkət Ağayeva: "Gələcəkdə xarici ölkələrdə tibb konfranslarında, mübadilə proqramlarında və ya birgə tədqiqat layihələrində iştirak etməyi çox arzulayıram və inanıram ki, bu təcrübə hədəflərimə çatmaqda əhəmiyyətli olacaq. Əsas məqsədim gələcəkdə savadlı, peşəkar həkim olmaqdır. Bunun üçün öz üzərimizdə daim çalışmalı, əlavə vebinar, təlim, konfrans və bu cür beynəlxalq mübadilə proqramlarında fəal iştirak etməliyik".

Fuad Hüseynov isə deyir: "Twinning" proqramının ən xoş tərəflərindən biri də gələcəkdə Rumıniyadan gələcək tələbə yoldaşlarımızı Naxçıvanda qonaq edib, onlara həm mədəniyyətimizi, həm də təhsil sistemimizi tanıtmaq üçün xüsusi proqram təşkil etməkdir. Bu cür proqramlara daha çox tələbənin qoşula biləcəyinə inanıram. İştirakçı tələbələr üçün proqramdan əvvəl oriyentasiya təlimləri, əsas dil dəstəyi və mədəni hazırlıq sessiyalarının təşkil edilməsi tələbələrin uyğunlaşma prosesini asanlaşdıracaqdır. Proqramdan sonra isə təcrübələrin yazılı və ya vizual şəkildə paylaşıla biləcəyi, kollektiv yaddaş yaradacaq rəqəmsal platformanın qurulması faydalı olardı".

Biz də Rumıniyada mübadilə proqramında iştirak edən, müəyyən təcrübə qazanan tələbələrə gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

"Şərq qapısı"

DÜNYA xəbərləri

“Google” axtarış sistemi bütün dünyada istifadəçiləri “google.com”a keçirəcək

Tarixən dünyanın müxtəlif ölkələrində “Google” axtarış sistemi Azərbaycanda “google.az” və ya Türkiyədə “google.tr” kimi milli yüksəksəviyyəli domenlərdən istifadə edir. Bu, tezliklə dəyişəcək və “Google” axtarış sistemi coğrafi yerindən asılı olmayaraq, dünyanın bütün istifadəçiləri üçün “google.com” saytında əlçatan olacaq.

“Google” yerli uyğun axtarış nəticələrini təqdim etmək üçün əvvəlcə milli yüksəksəviyyəli domenlərdən istifadə edib. 2017-ci ildən etibarən şirkətin axtarış sistemi regional ünvandan və ya “google.com”dan istifadə olunmasından asılı olmayaraq, müvafiq nəticələri təqdim edir. İndi isə İT nəhəngi bütün axtarış sistemləri trafikini “google.com”a yönləndirəcək ki, bu da gözlənildiyi kimi, istifadəçinin xidmətlə qarşılıqlı əlaqə prosesini sadələşdirəcək.

Qeyd olunur ki, istifadəçilər yeni URL ünvanı görəcəklər, lakin bu, heç bir şəkildə axtarış sisteminin işinə təsir etməyəcək. Bu yenilik insanların brauzerin ünvan çubuğunda gördüklərini dəyişəcək, lakin axtarış sisteminin işinə heç cür təsiri olmayacaq.

Axtarış sisteminin “google.com” domeninə keçirilməsi bir neçə ay çəkəcək və xidmətin bütün istifadəçiləri üçün eyni vaxtda həyata keçirilməyəcək.

Çində kosmik turizm 2035-ci ilədək kommersiya inkişafının yeni mərhələsinə qədəm qoyacaq

Kosmik sənayenin davamlı sürətli və dayanıqlı inkişafı ilə Çinin bu sahədə turizm sektoru yaxın 5-10 il ərzində kommersiya inkişafının ilkin mərhələsinə qədəm qoyacaq. Bu barədə ölkənin kommersiya kosmik sənayesinin inkişafına dair nüfuzlu “CCID Consulting” məşvərətçi şirkətinin aprel hesabatında deyilir.

Hesabatda 2026-2030-cu illərin sonu və ya 2031-2035-ci illər arasında Çinin kommersiya kosmik sənayesinin daha da təkmilləşəcəyi, gəlirini xeyli artıracağı və qlobal miqyasda indikindən çox nüfuz qazanacağı ehtimal edilir.

“CCID Consulting” şirkətinin aparıcı tədqiqatçısı Yanq Şaosyan hesab edir ki, yaxın 5-10 il ərzində Çinin kosmik turizmi sektoru və Ayın kommersiya əsasında tədqiqi siyasətində irəliləyişlərə nail olunacaq, sınaq uçuşları həyata keçiriləcək və ya kommersiya inkişafının ilkin mərhələlərinə qədəm qoyulacaq.

Kosmosun kommersiya məqsədli tədqiqi Çin üçün strateji əhəmiyyət kəsb edir və 2024-cü ildə hökumətin fəaliyyəti ilə bağlı hesabatına ölkənin “iqtisadi inkişafın yeni lokomotivi” kimi daxil edilib.

2024-cü ilə dair hökumətin hesabatında, həmçinin Çinin kommersiya kosmonavtikası, aşağı hündürlüklü orbit iqtisadiyyatı və digər inkişaf etməkdə olan sənayelərin təhlükəsiz və sağlam inkişafını təşviq edəcəyi bildirilir.

Gender bərabərliyi ilə bağlı kitabın təqdimatı keçirilib

Aprelin 15-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix elmləri doktoru Sevinc Abbasovanın “İlham Əliyev: Qadınlara istiqamətli qlobal təşəbbüslər və gender bərabərliyinin inkişafı (2003-2023)” kitabının təqdimatı keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Mərkəzi Elmi Kitabxanada Ulu Öndər Heydər Əliyevin büstünü ziyarət edib, önünə gül dəstələri qoyublar.

Təqdimat mərasimini AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq kitab haqqında təəssüratlarını bölüşüb, əsərdə 2003-2023-cü illərdə müstəqil Azərbaycan dövlətinin təməllərinin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edən gender siyasətinin ön plana çəkildiyini söyləyib. Akademik bildirib ki, yeni nəşrdə dövlətimizin milli-mənəvi dəyərlərimizin gender siyasətinin əsas perspektiv istiqamətinə çevrilməsi yolunda atdığı addımlardan və gender bərabərliyinin inkişafında bir sıra taleyüklü məsələlərdən bəhs olunub.

Akademik İsa Həbibbəyli Ümummilli Lider Heydər Əliyevin ənənələri əsasında Prezident İlham Əliyevin apardığı siyasətin işığında Azərbaycanda qadın hərəkatının inkişafı, gender bərabərliyi siyasətinin həyata keçirilməsinə həsr olunmuş kitabı Azərbaycan tarixşünaslıq elminə dəyərli töhfə kimi qiymətləndirib.

Tədbirdə Milli Məclisin komitə sədri, siyasi elmlər doktoru, professor Hicran Hüseynova çıxış edərək ictimaiyyətə təqdim olunan nəşrin gender bərabərliyinin təmin olunmasında Azərbaycan modelini dərindən anlamaq və öyrənmək istəyənlər üçün dəyərli vasitə olduğunu bildirib.

Professor Hicran Hüseynova yeni nəşrdə nəzəri əsaslarla praktiki təhlillərin vəhdətinin yaradıldığını, mövzunun müxtəlif aspektlərdən araşdırıldığını deyib, müəllifə yeni yaradıcılıq uğurları arzulayıb.

Tədbirdə digər çıxış edənlər müəllifin yaradıcılığından və kitabın məziyyətlərindən danışıblar. Qeyd olunub ki, təqdim olunan əsər qiymətli elmi mənbədir.

Daha sonra nəşrin müəllifi, tarix elmləri doktoru Sevinc Abbasova çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Atı nalı saxlar...

Qədim el sənətimiz nalbəndlik bu gün də yaşadılır

Zəngin tarixi mədəni irsə malik olan qədim Naxçıvan müxtəlif sənət sahələrini yaradan və min illər boyu yaşadan sənətkarları ilə zəngindir. Hazırda dövrün tələbinə görə qismən az istifadə olunan, lakin bir sənət sahəsi kimi hələ də yaşadılan nalbəndlik XX əsrin 50-ci illərinədək daha aktiv idi. İlk zamanlar dəmirçiliklə birgə inkişaf edən nalbəndlik sonrakı dövrlərdə ayrıca sənət sahəsi kimi formalaşmışdır. Yaşadığımız müasir dövrdə də bu sənət nalbəndlər tərəfindən yaşadılır. Bunlardan biri də yaxın zamanlarda 70 yaşını tamamlayacaq şərurlu Qurban Məmmədovdur.

Nalbəndin sorağı ilə yolumuz Şərur rayonunun gözqamaşdıran mənzərəsi, təmiz havası, ecazkar gözəlliyi ilə ruhumuzu, cismimizi oxşayan Danyeri kəndinə düşür. Kəndin ensiz yollarında soraqlaşa-soraqlaşa Qurban dayının evinə yaxınlaşırıq. Gülər üzü, şirin dili ilə bizi elə qapıdaca qarşılayan Qurban dayı və ailəsi bizi evlərinə dəvət edir. Bir az hal-əhval tutduqdan sonra Qurban Məmmədovu bu yaşa belə sağlam çatması münasibətilə təbrik edir, sənəti barədə söhbətə başlayırıq. Qurban Məmmədov deyir: “Elə dədə-babadan atlarla məşğul olmuşam, balaca vaxtlarımdan minikçi kimi yetişmişəm. 23 yaşımdan isə nalbəndlik sənəti ilə məşğul oluram. Atlara olan marağım məni bu sənəti öyrənməyə vadar etdi. Hazırda da bu sənət sahəsi ilə məşğul olur, kimə ehtiyacdırsa, onların atlarını nallayıram”.

“Bu sənətə tələbat varmı?” sualımızın cavabında Qurban dayı bunları söylədi: “Bu sənətə tələbat vardır. Çünki at minən insan 45 gündən bir atı nallamalı, köhnə nal sökülməli və yenisi ilə əvəz olunmalıdır”. Qurban dayı, həmçinin qeyd etdi ki, atın ayağı mütləq nallanmalıdır. Onun sözlərinə görə, necə ki insan ayaqqabı geyinmədikdə daş ayağı əzirsə, atın da ayağına nal vurulmadıqda ayağı daşlardan zədə alır.

Müsahibim nalvurma prosesində bıçaq, çəkic, kəlbətin, yonmaq üçün törpü, mismar kimi alətlərdən istifadə etdiyini bildirir və prosesi izah edir. Əvvəlcə atın ayağını iplə sarıyaraq bərkidir. Daha sonra atın ayağını təmizləyir, çıxıntıları yonur, nal vurur yanlarda artıq qalan hissələri kəsib çıxarırıq.

Qurban dayı bu sənəti yaşatmaq üçün öz övladlarına da öyrətdiyini, hətta yaxın kəndlərdən atını nallatmaq üçün gələnlərin belə sənətə marağı olduğunu qeyd edir.

Burada haşiyə çıxaraq bildirmək istəyirik ki, müsahibim əvvələr Badaşqanda yerləşən Atçılıq İstirahət Mərkəzində atlara baxmış, nal vurmuş, hətta atların bəzi xəstəliklərini müalicəsi ilə məşğul olmuşdur.

İki yaşından yuxarı atların nallanmalı olduğunu vurğulayan Qurban dayı qeyd edir ki, hər atın öz ayağının ölçüsü var və ölçüyə uyğun nal vurulur. Nisbətən yaşlı atlar da istifadəyə yararlı olduğu müddətdə nallanmalıdır.

Sənətinin çətinliklərindən bəhs edən müsahibim burada bir atalar sözünü dilə gətirir: “At təpiyinə at dözər”. Qollarındakı mismarların şırım izlərini misal çəkərək deyir ki, buna baxmayaraq, bu sənətin çətinlikləri çoxdur, yenə də sevdiyim işlə həvəslə məşğul oluram.

7 illik yolyoldaşına çevrilmiş, rəngi ağ olduğundan “Ağgül” adını verdiyi Qarabağın Dilboz növü olan atını göstərərək deyir ki, bu yaşıma baxmayaraq, atımın arxasınca at gələ bilməz. Mənim atımı minməyə isə 50 nəfərdən 5-nin cəsarəti çatar.

Müsahibim atına və sənətinə o qədər bağlıdır ki, onlarsız özünü təsəvvür edə bilmir. Qədim el sənətimizi yaşadan ağsaqqala “Qolunuz qüvvətli olsun”, – deyib sağollaşırıq.

Türkanə ƏSƏDOVA

Naxçıvan karateçilərinə seminar keçilib, imtahan götürülüb

12-13 aprel tarixlərdə Azərbaycan Karate Federasiyasının (AKF) nümayəndələrinin iştirakı ilə Naxçıvan şəhərində texniki-taktiki seminar və kəmər imtahanı təşkil olunub. “Qapıcıq” və “Naxçıvan” karate klublarında reallaşan fəaliyyətlər karateçilərin nəzəri və praktiki keyfiyyətlərini yüksəltmək, eyni zamanda bacarıqlarını qiymətləndirmək məqsədinə xidmət edib.

AKF Hüquq və İntizam Komitəsinin sədri Həmdiyyə Məmmədovla, Texniki və Məşqçilər Komitəsinin sədri Əhməd Əfəndinin olduğu imtahan komissiyası idmançıların kihon, kata və kumite qaydalarında çıxışlarını izləyib, müvafiq qeydlərini aparıblar. Qiymətləndirmənin nəticəsi bir həftə sonra açıqlanacaq.

Qeyd edək ki, karateçilərdən 14-ü ikinci dan, 4-ü birinci dan qara kəmər, digərləri isə müxtəlif kəmər dərəcələri üzrə imtahan veriblər.

İtmişdir

Kəngərli rayonu, Qarabağlar kəndində yaşamış Süleymanov Əkrəm Musa oğlunun adına olan JN-442 nömrəli, 10209018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Zaxarova Ruslanə Ruslan qızının adına olan JN-745 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Cavadova Sənəm Əsəd qızının adına olan JN-1083[B] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış İsmayılov Əli Məmməd oğluna məxsus JN-399 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Alışar kəndində yaşamış Məhərrəmov Mədət Mikayıl oğluna məxsus JN-306[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Alışar kəndində yaşamış Məhərrəmov Aydın Mədət oğluna məxsus JN-360[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Arazkənd sakini Məmmədov Bayram Salman oğlunun adına olan JN-570[C] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Yaycı kənd sakini Eminov Mirkamil Mirkazım oğlunun adına verilmiş JN-527[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Böyükdüz kənd sakini Təmoyev Məhərrəm Kərəm oğlunun adına olan JN-226[A] nömrəli, 10300048 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kənd sakini Məmmədov Mövlan Mahir oğlunun adına verilmiş hərbi bilet itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərabad kəndində yaşamış Həsənov Lətif Cəlil oğlunun adına olan JN-210 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Əbrəqunus kənd sakini Tağıyev Kərim Tağı oğluna məxsus JN-188[A] və JN-188[B] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Sirab kəndində mərhum Yusifov Eldar Əmiraslan oğlunun adına verilmiş JN-137[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində Hənifəyeva Sevil İsmayıl qızının adına olan 154 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

Elan

Şahbuz rayon “Günəş” ATS Cəmiyyəti üzvlərinin nəzərinə çatdırılır ki, 9 may 2025-ci il tarixdə cəmiyyət üzvlərinin ümumi yığıncağı keçiriləcəkdir.

Cəmiyyət üzvlərinin iştirakı vacibdir.

ŞƏRQ QAPISI

Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Tiraj: 1000. Sifariş № 115

Nömrəyə məsul: Əli Cabbarov, Turan Məmmədli, Bülbül Quliyeva
Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.